

## Bəzi iri məmurlara yoxlama şoku...

Ölkə başçısı yeni gənclər və idman nazirini bu vəzifəyə təyin olunması ilə əlaqədar videoformatda qəbul edərkən demişdi ki, idman sahəsində buraxılan nöqsanlar ciddi araşdırılmalıdır, ciddi təhlil aparılmalıdır.

Səh.7


# UNİKAL

№15 (2100) 6 may 2022-ci il

Qiyməti 40 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.org unikal-1@mail.ru




## Təhsil Nazirliyində "Misir Mərdanov havası"...



Səh.9

## Sülh prosesinin pozulması üçün yeni oyun qurulur

## Hesablama Palatasının aşkarladığı pozuntular nədən xəbər verir?

Ötən il Təhsil Nazirliyində dövlət ehtiyaclarının həcminin tam qiymətləndirilməməsi, mövcud imkanların nəzərə alınmaması və malların xüsusiyyətlərinin dəqiq müəyyənləşdirilməməsi, alınmış malların bəzi hallarda istifadəsiz saxlanılmasına səbəb olmaqla səmərəsiz və artıq xərclərə gətirib çıxarıb. Bu barədə "Hesablama Palatasının 2021-ci ildə fəaliyyəti haqqında" hesabatında Təhsil Nazirliyində dövlət satınalmalarının hüquqi aktlara uyğunluğunun auditinin nəticələrindən çıxarışda qeyd edilib.Hesabatda bildirilib ki, dövlət satınalmalarının keçirilməsi zamanı podratçılarla bağlı müəyyən edilən tələblər bəzi hallarda rəqabətliliyin təmin edilməsinə təsir göstərib...

Səh.6

## "Ciddi struktur dəyişiklikləri aparılacaq"



Bu günlərdə Prezident İlham Əliyev beynəlxalq konfransda çıxışı zamanı bildirib ki, yeni idarəçilik modeli sınaqdan keçirilir. "Qarabağda sınaqdan keçirdiyimiz yeni sistem fərqli olacaq və düşünürəm ki, yekun sınaqlar bitəndən sonra bu sistemi Azərbaycanın digər ərazilərinə də tətbiq etmək...

Səh.4

## Vahid Ələkbərovla bağlı sensasion Bakı iddiası...



Məlum olduğu kimi, Azərbaycan əsilli rusiyalı iş adamı Vahid Ələkbərov "Lukoyl"un Direktorlar Şurasını və şirkətin rəhbəri vəzifəsini tərk edib. Bu barədə aprelin 21-də "Lukoyl"un yaydığı bəyanatda bildirilib.Qeyd edək ki, Lukoyl Rusiyanın ən böyük özəl neft şirkətidir.

Səh.8

## "Nazirlər Kabineti elə bil, kişilər klubudur" - Qüdrət Həsənquliyev



"Bizim Nazirlər Kabineti demək olar ki, kişilər klubudur. İcra başçılarının da hamısı kişilərdir". "Unikal" xəbər verir ki, bunu Milli Məclisin bu gün keçirilən iclasında deputat Qüdrət Həsənquliyev deyib. Deputat bildirib ki, bu istiqamətdə dəyişikliklər olmalıdır.

Səh.7

# Mətanət İskəndərli ilə keçmiş gəlininin arasındakı qalmaqal bitdi: "Evinə gedib üzr istədim və..."



***Əməkdar artist Mətanət İskəndərli ilə uzun müddət qalmaqal yaşadığı keçmiş gəlini Canana nəhayət ki, barışıb.***

"Unikal" bildirir ki, bu barədə Canana sosial şəbəkədə məlumat yayıb: "Müqəddəs Ramazan bayramı günü Mətanət xanımın evinə getdim və böyüyüm olaraq ondan baş verənlərlə bağlı üzr istədim. Çünki yaşanan hadisələrə görə balalarımı getgedə tamamilə itirə bilərdim. Bir böyük olaraq Mətanət xanım və uşaqlarımın atası Kərimin xeyir-duası olmasa, övladlarım məndən uzaqlaşırdı. Həqiqətən də bir nənə olaraq uşaqlarımın əziyyət çəkməyinə göz yuma bilmədi və bizim yenidən tam bir ailə olmasaq da, biri-birimizə dəstək olub, uşaqları böyüdüb, başa çatdırmağımıza xeyir-dua verdi.

Mətanət xanıma can sağlığı arzulayıram. O, bu addımıyla körpələrimi sevindirdi, mənə dünyaları bəxş etdi. Müqəddəs Ramazan bayramı həqiqətən də səbr edənlərin duasını yerinə yetirir. Bir onu deyə bilərəm ki, çox xoşbəxtəm. Artıq məhkəməyə ehtiyacımız yoxdur. Məhkəmələrlə yalnız uduzursan. Ağıllı insanlar problemləri öz aralarında həll etsələr, nə pulları gedər, nə əsəbləri, nə də zamanları. Bir də ortalıqda söz daşıyıb, araya söz-söhbət salan insanların Allah cəzasını versin".

Xatırladaq ki, Əməkdar artist Mətanət İskəndərlinin oğlu Kərim və Canana ötən ilin oktyabrında rəsmi olaraq boşanıb. Üç uşaq anadan alınaraq ataya verilmişdi.

# Pərvinin TikTok-da 35 min qazanmasını absurd adlandırdı



***"TikTok-un özəlliyi tamam başqadır. Oradakı yayımçıların 90 faizinə yayım texnologiyasını mən etmişəm. Mən başlayandan sonra hamıda mikrofon, studiya quruldu, peşəkarlaşdırdılar".***

Bu sözləri aparıcı Azər Zahid "10-da görüşək" verilişində deyib. O, tikTok-da olan qazancdan danışıb. Azər aparıcı Samir Bayramlının "Pərvin Abıyeva 35 min, Kənan M.m. 200 dollar qazanıb" sözlərinə belə cavab verib:

"Absurddur. 200, 500, min dollar realdır. Amma 35 min dollar olmaz. Aktivlik söhbəti var. Yutubda yüz minlik kanalım var idi, bağlandı. Orada tək sənə şir və ya başqa göndərilən hədiyyə deyil. Əvvəl 30 faiz qazanc verirdisə, indi platforma mənə 50 faiz verir. Orada yayımda olduğum üçün pul da verir. Şirkətlər zəng edir. Qazanc isə mənimdir, bunu demirəm. Mən qazandığım qədər insanlara da dəstək oluram. Orada 5 gündən artıq qazana bilməzsən. Sən kimsə dəstək olursan, kimsə də sənə. Ortada qazanan platformanın sahibidir. Gələn gəlir ortada fırlanır".



# Brilliant Dadaşova ilə Elariz Vaşinqtonda görüşdü

***Xalq artisti Brilliant Dadaşova konsert üçün Amerikaya gedib.***

Müğənni orada Elariz Məmmədoğlu ilə də bir araya gəlib. Birlikdə çəkilən fotolarını Elariz instaqram profilində paylaşıb.

Qeyd edək ki, Elariz illər əvvəl "Greencard" qazanaraq Amerikaya köçüb. Ötən gün B.Dadaşova, Nəzakət Teymurova, Ənvər Sadıqov və Abbas Bağırov Vaşinqtonda konsert verib.

# "Onları da toya çağırdım, amma heç biri gəlmədi" - Nadir Qafarzadə

***Müğənni Nadir Qafarzadə "7 Özəl" proqramına qonaq olub.***



"Unikal" xəbər verir ki, müğənni verilişdə oğlu Loğmanın toyunda dəvət etdiyi, amma məclisə gəlməyən müğənnilərin adını açıqlayıb.

"Sayanın qulu, saymayanın kralıyam. Necəsiniz, mən də elə olacam. Deyəcəklər, səni saymayıb gəlməyiblər. Amma mən heç bir toydan qalmamışam. Oğlumun toyunda Zülfiyyə Xanbabayevanı gözlədim. Uşaqlar istəyirdi gəlsin. Amma gəlmədi. Oğlum və gəlinim Eyyub Yaqubovu, Röya Ayxanı istədi, gəldilər də. Brilliant Dadaşova və Tünzalə Ağayevanı dəvət etmişdim, gəlmədilər. Gəlib orada "xoşbəxt olsunlar" demək çətin idi?".

# Market və gözəllik salonunu bağladı: "Müflis oldum"

***Əməkdar artist Nüşabə Ələsgərli müflis olduğunu açıqlayıb.***

Müğənni bu haqda "7 Canlı" proqramında danışıb. O, aparıcı Vüsalə Əlizadənin "Marketiniz, gözəllik salonunuz olub. Marketə oğru girib və sizə ziyan vurub" sözlərinə belə cavab verib:

"Hər bir biznesin başında insan özü dayanmalıdır. Alıb qoymaqla, kiməsə tapşırmaqla deyil. Gəlib görəcəksən ki, lələ köçüb, yurdu qalıb. Salon mənim üçün işləyirdi. Marketdə də elə... Çox incəliklər var. Mənə sübut oldu ki, hər şey öz işiylə məşğul olsun. İstədim sabah qocalanda, toya getməyəndə, gəlirim olsun. Müflisləşdim, itirdim, qazanmadım. Ziyanın yarısından qayıtmaq da xeyirdir".

# 10 mindən çox şəxsə əlillik təyin edilib - RƏSMİ

***Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi tərəfindən bu ilin ötən dövründə keçən ilin müvafiq dövrünə nisbətən 2,2 dəfə çox olmaqla 10 mindən çox şəxsə əlillik təyin olunub.***

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən (ƏƏSMN) "Unikal"a verilən xəbərə görə, ümumilikdə son 3 ildə 155 minədək şəxsə əlillik və sosial ödənişlərin təyinatı aparılıb.

Əlilliyin qiymətləndirilməsi tibb müəssisələri tərəfindən "Əlillik" altsisteminə daxil edilən göndərişlər əsasında, ekspert-vətəndaş təması olmadan, göndərişlərdəki diaqnozlar əsasında həyata keçirilir. Diaqnoz məlumatları şəxsin əlillik vəziyyətində olduğunu müəyyən etməyə əsas yaratdığı halda əlillik təyinatı həyata keçirilir.

Qanunvericiliyə əsasən əlillik müddətli və müddətsiz müəyyən edilir. Amputasiya və ya sağalmaz xəstəlik kimi geridönməz hallar olduqda, əlillik ömürlük, digər hallarda isə 5 illik müddətə təyin olunur. Beş illik müddət bitdikdə əlillik təkrar qiymətləndirilməlidir. Bunun üçün dövlət tibb müəssisələri tərəfindən e-sistemə göndəriş daxil edilməlidir. Göndəriş olmadığı təqdirdə əlillik müddətinin uzadılması, nəticədə əlilliyə görə sosial ödənişin davam etdirilməsi də mümkün olmur.

Məlumat üçün bildirək ki, 2020-2022-ci illər üzrə əlillik müddəti bitən şəxslərin əlilliyinin uzadılması üçün tibb müəssisələri tərəfindən e-sistemə daxil edilən göndərişlər (Forma 88) üzrə 57 min şəxsə əlillik təyin edilib.

Bir sıra hallarda e-sistemə daxil edilən göndərişlərin natamam tərtibi, şəxsin əlillik vəziyyətini müəyyən etməyə əsas yaradan zəruri qeydlərin göndərişdə olmaması şəxsin əlilliyi ilə bağlı qərar verilməsinə çətinlik yaradır. Təcrübədə hətta belə halda həqiqətən əlillik vəziyyətində olan şəxsin (tibbi-sosial ekspertiza xidmətinin onu əyani görməməsi, birbaşa təmas olmaması nəticəsində) əlilliyinin qiymətləndirilməsi mümkün olmadığından göndərişin geri göndərildiyi hallar olur.

Göndərişin təkrarən tibb müəssisəsinə geri göndərilməsi isə həmin sənədin daha dürüst tərtib olunması məqsədi daşıyır və heç də şəxsə əlillik təyin edilməsindən imtina olunmasına dəlalət etmir.

Nazirliyin təşəbbüsü ilə hazırlanmış və Milli Məclis tərəfindən təsdiq olunmuş qanunvericilik layihəsi üzrə əlillik müddəti başa çatdıqdan sonrakı 6 ay ərzində təkrar əlillik təyin olunduğu halda ortada itirilmiş müddətin nəzərə alınması ötən ilin 24 iyulundan etibarən tətbiq edilir. Ötən dövr ərzində 12 mindən çox əlillik qiymətləndirilməsində bu müddəa tətbiq edilmiş və insanların ödəniş hüquqları təmin olunub.

Əlillik təyinatından dərhal sonra avtomatik şəkildə proaktiv qaydada əlilliyə görə sosial ödənişlər təyin olunur. Son illərdə aparılan sosial islahatlar əlilliyi olan şəxslərə ödənilən sosial ödənişlərdə də ciddi artımlara imkan verib. 2018-ci ilin əvvəli ilə müqayisədə onlara ödənilən pensiyaların orta aylıq məbləği 82%, müavinət ödənişləri 3 dəfə, xüsusi kateqoriyalara aid əlilliyi olan şəxslərə təqaüd ödənişləri 5 dəfə çox artıb.

Əlilliyi olan şəxslərə pensiya, müavinət, təqaüd formasında ödənişlərin ümumi illik məbləği isə 1 milyard 533 milyon manata çatıb.

# Vahid Ələkbərovla bağlı sensasion Bakı iddiası...

## Rusiyanın azərbaycanlı milyarderi hansı ilginc qərar qəbul edəcək?

***Məlum olduğu kimi, Azərbaycan əsilli rusiyalı iş adamı Vahid Ələkbərov "Lukoyl"un Direktorlar Şurasını və şirkətin rəhbəri vəzifəsini tərk edib. Bu barədə aprelin 21-də "Lukoyl"un yaydığı bəyanatda bildirilib.***



Qeyd edək ki, Lukoyl Rusiyanın ən böyük özəl neft şirkətidir. Şirkətin mətbuat xidmətinin yaydığı məlumatda bildirilib ki, Lukoylun həmsahibi, prezidenti və təsisçisi Vahid Ələkbərov tutduğu vəzifədən, həmçinin direktorlar şurasından istefa vermək qərarına gəlib. Bu gün şirkətin direktorlar şurasının sədrinə müvafiq istefa barədə məktub göndərilib. Şirkət qeyd edib ki, Vahid Ələkbərov nəzarət paketinin sahibi deyil, o, birbaşa səhmlərin cəmi 3,12%-nə, həmçinin səsvermə hüququ olmayan fondlar vasitəsilə 5,43%-ə sahibdir. Xatırladaq ki, bir müddət əvvəl Vahid Ələkbərov Böyük Britaniyanın sanksiyalarına məruz qalıb.

Yeri gəlmişkən xatırladaq ki, bir müddət öncə "Bloomberg Billionaires Index" Rusiya milyarderlərinin ümumi sərvətinin azaldığını, ən çox itirən şəxsin isə Vahid Ələkbərov olduğunu açıqlamışdı. Belə ki, onun sərvətinin 17,4 milyard dollar həcmində azaldığı açıqlanmışdı. Dekabr ayında milyarderin sərvəti 26,16 milyard dollar olaraq qiymətləndirilirdi.

Onu da deyək ki, V.Ələkbərov 1950-ci ilin sentyabrın 1-də Bakı şəhərinin "Razin" qəsəbəsində, (hazırkı Bakıxanov qəsəbəsi) Yusif Ələkbərov və Tatyana Fyodrovana cütlüyünün ailəsində dünyaya gəlib. Ailədə 3 bacı və 2 qardaş olublar.

Vahid evin sonbeşiyi olub. Atası Yusif Ələkbərov neft mədənlərində çalışıb. Ana Tatyana Fyodrovana isə evdar xanım olub. Ailə illərlə Yusif kişinin qazandığı fəhlə maaşı ilə dolanıb. Vahidin 3 yaşı olarkən atası qəfildən vəfat edib. Bu isə ailənin maddi vəziyyətini daha da dözülməz edib. Nəticədə V.Ələkbərovun uşaqlığı ehtiyac içində, kasıblıqla mübarizədə keçib.

Həmin vaxta qədər heç bir yerdə çalışmayan 38 yaşlı ana T.Fyodrova dövlətdən aldığı 34 rubl pensiya ilə beş uşağına baxmağı düşünür. Lakin sonda çarəsiz qalan ana müxtəlif yerlərdə çalışmalı olub. Bütün çətinliklərə, dözlüməz şəraitə baxmayaraq övladlarından imtina etməyib, onların ehtiyaclarını qarşılamaq üçün var gücü ilə mübarizə aparıb. Bir müddət sonra ailənin böyük övladı Züleyxa Ələkbərova da neft sahəsində işə başlayıb. Nəhayət, Ələkbərovlar ailəsinin ən ağır günləri geridə qalır.

Vahid Ələkbərov iş həyatına 8 yaşından başlayıb. Azərbaycan Neft və Kimya İnstitutunu 1974-cü ildə bitirib. Əmək fəaliyyətinə Məşədi Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunda (indiki Neft Akademiyası) təhsil aldığı vaxt "Kaspromneft" müəssisəsinin 2 nömrəli mühəndis-texnoloji xidmətində neft və qaz hasilatı üzrə operator kimi başlayan Ələkbərov, SSRİ neft və qaz sənayesi nazirinin müavini, daha sonra nazirin birinci müavini olub. 1991-ci ilin sonunda Perm, Volqoqrad və Majeyski zavodları ilə Lanqenpasneftqaz, Uray-neftqaz və Koqalımneftqaz (sonradan bu üç zavodun baş hərfləri "LUKoyl" şirkətinin adına çevrildi) arasında müqavilənin imzalanmasına nail olaraq, Rusiyada ilk neft konsernini yaradıb. 1993-cü ildən iki həftə öncəyədək "Lukoyl" şirkətinə prezidentlik edib. Dünən isə Rusiya Prezidenti Vladimir Putin Vahid Ələkbərovu təltif edib. İş adamı I dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif olunub.

Ələkbərovun öncə "Lukoyl" rəhbərliyindən getməsi, ardınca isə Putin tərəfindən mükafatlandırılması onun Rusiyadan ayrılmağa hazırlaşması kimi qiymətləndirilib. Kreml rəhbərinin təqdim etdiyi orden Ələkbərovun indiyə qədərki xidmətləri üçün təşəkkür olaraq dəyərləndirilir və hesab edilir ki, azərbaycanlı iş adamı vətəninə qayıda bilər. Belə ki, Rusiyanın mövcud iqtisadi-siyasi vəziyyətini öz hədəfləri baxımından əlverişli hesab etməyən V.Ələkbərovun Bakıya köçməsi və bundan sonrakı fəaliyyətini həm doğulub boya-başa çatdığı, həm də əmək karyerasına başladığı ölkədə davam etdirməsi istisna deyil.

Bu iddianı qüvvətləndirən məqamlardan başlıcası isə V.Ələkbərovun Azərbaycanın bank sektoruna daxil olmasıdır. Söhbət ondan gedir ki, o, ötən ilin payızında Azərbaycana gəlib və sahibi olduğu Yelo Bank ASC-nin yeni ofisinin açılışını edib. Mərasimə Azərbaycan Mərkəzi Bankının o vaxtkı sədri Elman Rüstəmov, digər rəsmi şəxslər də qatılıb.

Hazırda Yelo Bank-ın ölkəmizin bank sektorunda güclənməyə çalışdığı da gələn bilgilər arasındadır.

Xatırladaq ki, əvvəlki adı "Nikoil Bank" olan bu bankın səhmlərinin 96 faizi V.Ələkbərova məxsus "Topaz İnvestments" şirkətindədir.

***Sənan Mirzə***

# Şeyxülislam Qazaxıstana gedib

***May ayının 6-da Qazaxıstanın Türküstan şəhərində Qazaxıstan Müsəlmanları Ruhani İdarəsinin təşkilatçılığı ilə "Türk xalqlarının İslam sivilizasiyasının inkişafına töhfəsi" mövzusunda beynəlxalq elmi-praktiki konfrans keçiriləcək.***



Konfransda Türk Dövlətləri Təşkilatının baş katibi Bağdad Amreyev, Qazaxıstan Respublikasının İnformasiya və Sosial İnkişaf Naziri Əsgər Ömərov, Beynəlxalq Türk Akademiyasının Prezidenti Darxan Xıdırəli, Türkiyə Respublikasının Dini İşlər İdarəsinin rəisi, Ali din xadimi Ali Erbaş, Qırğızıstan Müsəlmanları Ruhani İdarəsinin sədri Zakir Rakiyev, Qazaxıstan Müsəlmanları Ruhani İdarəsinin sədri Ali Müfti Nauız Hacı Taqanulı və digər rəsmi şəxslər çıxış edəcəklər.

Türk dünyası üçün mühüm əhəmiyyət kəsb edən bu tədbirdə Azərbaycanı Qafqaz Müsəlmanları İdarəsinin sədri Hacı Allahşükür Paşazadə təmsil edir. Bu məqsədlə bütün Qafqazın Şeyxi Türküstan şəhərinə gedib. Türküstan Beynəlxalq Hava Limanında Bütün Qafqazın Şeyxini Nauızbay Hacı Taqanulı, Azərbaycanın Qazaxıstandakı fövqəladə və səlahiyyətli səfiri Ağalar Atamaoğlanov və digər rəsmi şəxslər qarşılayıblar.

# Sülh prosesinin pozulması üçün yeni oyun qurulur

***Ermənistanda baş qaldıran etirazlar davam edir. Baş nazir Nikol Paşinyana qarşı başlayan etirazlar Azərbaycanla Ermənistan arasında aparılan danışıqlar prosesinə də ciddi manеələr yarada bilər. Belə ki, anti-Paşinyan qüvvələr Qarabağ savaşındakı məğlubiyyətdə hazırkı hakimiyyəti ittiham edərək, revanşist mövqelərini ifadə edirlər.***

Onu da qeyd edək ki, bir neçə gün öncə Ermənistan silahlı bölmələri Kəlbəcər istiqamətində atəşkəsi pozublar. Ölkə rəhbərlərinin görüşlərindən sonra, sülh danışıqlarına hazırlıq getdiyi bir məqamda bu yöndə razılaşmalara zidd addımların atılması birmənalı qarşılanmır.

Bu barədə fikirlərini "Unikal"la bölüşən keçmiş xarici işlər naziri Tofiq Zülfüqarov deyib ki, qarşı tərəf sülh istəmir, imitasiya edir. Onun fikrincə, Ermənistanda istər iqtidar, istərsə də müxalifət eyni mövqedədir, onların mövqeyi sülh prosesinin görüntüsünü yaratmaqdır.

Eks-nazir onu da bildirib ki, Ermənistan tərəfi Azərbaycanın irəli sürdüyü 5 prinsipi ümumi şəkildə qəbul edib. "Bu məsələni uzadırlar. Onların gələcəkdə müəyyən prinsipin məzmununu dəyişmək cəhdləri aydın görünür. Belə ki, Paşinyan siyasi bəyanatlar verir. Bir tərəfdən sülhdən danışır, digər tərəfdən isə açıq bəyan edir ki, məqsədləri yeni şəraitdə "Artsax" siyasətini davam etdirməkdir. "Təhlükəsizlik" mövzusunu irəli ataraq, orada öz hərbi hissələrini saxlamaq niyyətindədirlər. Ermənistan sülh sazişindən öz əsas istəklərini ört-basdır etmək üçün istifadə edir. Vaxt uzatmaq, real sülhə aparan məsələlərin qarşısını almaq və s. Bu taktika davam olunacaq. Son günlər Ordumuzun mövqelərinin atəşə tutulması da bunun bir hissəsidir. Onlar başa düşürlər ki, məsələlər iki istiqamətdə getməlidir. Bunlar, sülh sazişi və delimitasiyadır. Ermənistan tərəfi bu məsələlərdə müxtəlif üslublardan istifadə edəcək".

Lakin rəsmi İrəvan sülh danışıqlarına hazır olduqlarını bəyan etməkdə davam edir. Belə ki, dünən Ermənistanın Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan hökumətin iclasından sonra jurnalistlərlə keçirdiyi brifinqdə Ermənistan-Azərbaycan sərhədinin delimitasiyası üzrə ikitərəfli komissiyanın yaradılıb-yaradılmaması, onun görüşünün mümkün olub-olmaması sualını cavablandırarkən deyib ki, Ermənistan-Azərbaycan sərhədinin delimitasiyası üzrə ikitərəfli komissiya ətrafında müzakirələr davam edir.

"Bununla bağlı müzakirələr davam edir. Təbii ki, biz ümid edirdik ki, aprelin sonuna kimi həll yollarını tapıb irəliyə gedəcəyik. Amma deyə bilərəm ki, hazırda intensiv müzakirələr davam edir, yaxın gələcəkdə bu görüşün baş tutacağına ümid var. Müzakirələr işçi qrupla bağlı yanaşmalardan gedir, başqa suallar da var ki, hələlik dəqiq cavab tapa bilməmişik. Onlar tapıldıqdan sonra ictimaiyyətə açıqlama veriləcək və görüş keçiriləcək", - Qriqoryan bildirib.

Xatırladaq ki, aprelin 6-da Brüsseldə Azərbaycan Prezidenti İlham Əliyev, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistan Baş naziri Nikol Paşinyan arasında üçtərəfli danışıqlardan sonra tərəflər aprelin sonunadək Ermənistan-Azərbaycan sərhədinin delimitasiyası və təhlükəsizliyi üzrə ikitərəfli komissiyanın yaradılmasına razılışıblar.



Armen Qriqoryan qeyd edib ki, bəzi suallar var və onların cavabları yalnız baş nazir Nikol Paşinyanla Prezident İlham Əliyevin mümkün görüşündən sonra müzakirə olunacaq.

Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyevlə bu yaxınlarda keçirdiyi görüşdən əvvəl Armen Qriqoryan qeyd etmişdi ki, əgər görüş konstruktiv atmosferdə keçsə, onun ardınca Nikol Paşinyanla İlham Əliyev arasında da görüş baş tutacaq.

Jurnalistlərin Nikol Paşinyanla İlham Əliyev arasında görüşün mümkün olub-olmayacağı ilə bağlı sualına Qriqoryan belə cavab verib:

"Suallar var, yalnız onların cavabından sonra ölkə liderlərinin mümkün görüşünü müzakirə etməyə başlayacağıq. Biz hələ də onları müzakirə edirik. Müzakirələr müəyyən mərhələyə çatdıqda və mümkün görüş təyin edildikdə, biz bunu açıq elan edəcəyik".

Onu da xatırladaq ki, Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyevlə mayın 2-də Brüsseldə görüşüb.

Politoloq Turan Rzayev hazırda Ermənistanda baş verən etirazlara diqqət çəkib. O bildirib ki, Ermənistanın Baş naziri Nikol Paşinyan ölkə parlamentində məlum çıxışı zamanı müxalifəti qəzəbləndirəcək və onlara mübarizə üçün yeni tezislər sayılan ciddi açıqlamalar vermişdi:

"Ermənistan və Azərbaycan tezliklə sülh sazişi bağlamalıdır", "Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanıyır", "Ermənistanın Azərbaycana qarşı heç vaxt ərazi iddiası olmayıb və Qarabağ məsələsi ərazi deyil, hüquq məsələsidir" və s. Əslində Paşinyan bu sözlərlə ölkə ictimaiyyətini mövcud reallıqlarla barışmağa, əks təqdirdə hərbi əməliyyatların qaçılmaz olduğuna inandırmağa çalışırdı. Paşinyan başa düşür ki, sülh müqaviləsi tez bir zamanda imzalanmasa, nə Türkiyə ilə münasibətlər normallaşacaq, nə də Ermənistan Rusiyanın təsirindən xilas ola biləcək. Paşinyanın Qarabağın "statusu"nu arxa plana keçirməsi, Türkiyə və Azərbaycanla münasibətlərin normallaşdırılması istiqamətində fəallığa başlaması isə müxalifətə yeni fürsətlər yaradıb. Hazırda radikal müxalifətin bütün qanadları baş nazir Nikol Paşinyanı devirmək üçün birləşib".

Politoloq hesab edir ki, müxalifət etiraz gücünü və qələbəyə inamı artırmaq, eləcə də etirazçıların say çoxluğuna nail olmaq üçün simvolikadan geniş istifadə edir. Misal üçün, etirazçılar hazırda İrəvanın "Fransa meydanı"nda daha kompakt şəkildə toplaşıb. Paşinyan da vaxtilə etirazlara buradan başlamışdı. Etirazçılar bununla əslində Paşinyana "vaxtilə etdiyini təkrarlayaraq, səni inqilabla devirəcəyik" mesajını verir. Amma etirazlar nə qədər ciddi görünsə də, Paşinyanın devriləcəyi real görünmür:

Birincisi, etirazçıların sayı Paşinyanı devirmək üçün kifayət deyil. Məsələ ondadır ki, bir neçə gün öncə etirazçıların sayı 15 min həddində idisə, hazırda bu say 5 mindən azdır.

İkincisi, hakimiyyətə qarşı etiraz aksiyaları təşkil edənlərin Ermənistanın düşdüyü vəziyyətdən çıxması üçün heç bir proqramı yoxdur. Hazırda etirazçılar sadəcə olaraq Paşinyanı devirmək istəyirlər. Sonrakı planlarının nə olacağı isə nə özlərinə, nə də erməni cəmiyyətinə bəlli deyil.

Üçüncüsü, erməni xalqı yaxşı başa düşür ki, Paşinyan devrilsə, Köçəryan, Sərkisyan, Vanetsyan, və ya bu kateqoriyadan olan başqa bir şəxs hakimiyyətə gələcək. Bu qüvvələr isə öz növbəsində əvvəlar olduğu kimi hakimiyyəti bölüşdürməyə başlayacaqlar. Erməni xalqı daha hakimiyyətə can atan bu və ya digər qüvvələrin onların hesabına varlanmasını və ya onların siyasi məqsədləri üçün övladlarının qurban olmasını istəmir".

Siyasi şərhçi Ceyhun Əhmədli isə deyib ki, Ermənistandakı etiraz aksiyalarının əsas məqsədi Ermənistan hakimiyyəti Azərbaycan və Türkiyə ilə münasibətləri normallaşdırmaq siyasətindən geri addım atmağa məcbur etməkdir. O bildirib ki, mitinqləri təşkil edən qüvvələrin əsas məqsədi Paşinyanı devirmək yox, Azərbaycanla sülh razılaşmasında geri addım atmağa məcbur etməkdir: "7 aprel tarixində Brüssel şəhərində keçirilən görüşün nəticələrinə əsasən yeni sülh gündəliyi formalaşdı. Həm sərhədlərin delimitasiyası, həm də yekun sülh müqaviləsinin imzalanması istiqamətində mühüm qərarlar qəbul olundu. Lakin Ermənistandakı etiraz aksiyalarının daha geniş vüsət alması və ciddi təxribatlarla müşayiət olunması halında biz Ermənistan hakimiyyətinin Brüssel razılaşmasından geri çəkiləcəyini düşünə bilərik, belə bir ehtimal var. Yəni Paşinyan özü Qərbdəki vasitəçilərə belə bir təqdimat edə bilər ki, mən sülh müqaviləsini imzalasam, Azərbaycan və Türkiyə ilə münasibətləri normallaşdırsam, daxildə vətəndaş qarşıdurması yarana bilər. Və Paşinyan bu faktoru bir bəhanə kimi gətirib, sülh razılaşmasından geri çəkilə bilər və yaxud Azərbaycanın ərazi bütövlüyünü tanımaq mövqeyindən daşına bilər. Bu hadisələr Paşinyan üçün bir bəhanə rolunda da çıxış edə bilər. Amma Paşinyanı hazırda devirmək çox çətindir. Çünki onun arxasında böyük bir sosial baza var. 2021-ci il seçkiləri göstərdi ki, erməni xalqı Paşinyanın hakimiyyətini dəstəkləyir. Və eyni zamanda onu da nəzərə alaq ki, iğtişaşlar çox geniş bir miqyas almayıb. Yəni 5, 10, 15 min nəfərin küçələrə çıxıb, yolları bağlaması və yaxud da dövlət idarələrinə hücum çəkməsi mövcud hakimiyyətin devrilməsi ilə nəticələnməyəcək. Onu da deyim ki, bu mitinqləri təşkil edən xaricdəki qüvvələrin məqsədi heç də Paşinyanı devirmək deyil. Əsas məsələ Paşinyanı geri addım atmağa məcbur etməkdir".

***Z.Məmmədli***

# Prezident Bakı Şəhər İcra Hakimiyyətinə 25 milyon manat ayırdı



***Prezident İlham Əliyev Mərkəzi Nəbatat Bağının ərazisində abadlıq, yenidənqurma və tikinti işlərinin həyata keçirilməsi ilə əlaqədar tədbirlər haqqında Sərəncam imzalayıb.***

"Unikal" xəbər verir ki, Sərəncamda deyilir:

"1. Mərkəzi Nəbatat Bağında abadlıq, yenidənqurma və tikinti işlərinin həyata keçirilməsi üçün Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Bakı Şəhər İcra Hakimiyyətinə ilkin olaraq 25,0 (iyirmi beş) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin".

# Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin strukturu dəyişdi



***Nazirlər Kabineti "Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı"nda dəyişiklik edib.***

"Unikal"ın xəbərinə görə, "Avtomobil Nəqliyyatı ilə Daşımaların Təşkili" Məhdud Məsuliyyətli Cəmiyyəti və Nəqliyyat Təlim-Tədrisi Mərkəzi siyahıdan çıxarılıb.

"Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi" publik hüquqi şəxs Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısına daxil edilib.

# Sülhməramlılar Qarabağın bu ərazilərindən çıxdı

***Qarabağda müvəqqəti yerləşdirilən Rusiya sülhməramlıları iki nəzarət-buraxılış məntəqəsini ləğv edərək oradan çıxıblar.***

"Unikal"ın xarici KİV-ə istinadən verdiyi xəbərə görə, sökülən hər iki nəzarət-buraxılış məntəqəsi Xocavənd və Xocalı ( Sos və Xaçmaç kəndləri - red. ) rayonlarında yerləşirdi.

Bildirilib ki, sülhməramlılar həmin kəndlərdə nəzarət-buraxılış məntəqəsi saxlamağı mənasız hesab edib, ona görə də onu söküblər.

Ərazidən çıxan rusiyalı hərbçilərin hara köçürülməsi haqqında məlumat verilməyib.

*Ağarza Elçinoğlu*

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2500

# Yoluxanların sayı açıqlandı

***Azərbaycanda bu gün koronavirus infeksiyasına 11 yeni yoluxma faktı qeydə alınıb, 21 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.***

"Unikal" xəbər verir ki, bu barədə Nazirlər Kabineti yanında Operativ Qərargah məlumat yayıb.

Son sutkada COVID-19-dan vəfat edən olmayıb.

# Spiker Yaponiya nümayəndələri ilə görüşdü

***Milli Məclisin sədri Sahibə Qafarova mayın 5-də ölkəmizdə səfərdə olan Yaponiya xarici işlər nazirinin parlament üzrə müavini Honda Taro ilə görüşüb.***



"Unikal" xəbər verir ki, yaponiyalı qonağı salamlayan Milli Məclisin sədri bu səfərin iki ölkə arasındakı münasibətlərin inkişafına öz töhfəsini verəcəyinə inamını ifadə edib.

Azərbaycan ilə Yaponiya arasındakı əlaqələrin bugünkü vəziyyətinin məmnunluq doğurduğunu deyən Sahibə Qafarova Azərbaycanın Yaponiya ilə əlaqələrin hərtərəfli inkişafına böyük əhəmiyyət verdiyini diqqətə çatdırıb. Bildirib ki, ölkələrimiz arasındakı fəal siyasi dialoq, sıx iqtisadi əməkdaşlıq ikitərəfli əlaqələrin digər sahələrdə də inkişafı üçün yaxşı zəmin yaradır.

Spiker yaponiyalı qonağa Azərbaycan ərazilərinin Ermənistan tərəfindən 30 il davam edən işğalına son qoyulması, işğal dövründə Ermənistanın binalar, infrastruktur, o cümlədən mədəni və dini abidələrimizi tamamilə məhv etməsi, hazırda işğaldan azad edilmiş ərazilərimizdə aparılan quruculuq və bərpa işləri, həmçinin mövcud mina problem barədə məlumat verib.

Spiker qeyd edib ki, hazırda Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşması üzrə səylər davam edir. Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin təşəbbüsü və iştirakı ilə Brüsseldə keçirilmiş üçtərəfli görüşdə müəyyən razılaşmalar əldə olunub. Ermənistan Azərbaycanın sülh müqaviləsi üçün irəli sürdüyü 5 prinsipi qəbul edir. Biz sülhdən və sabitlikdən danışırıq və inanırıq ki, tezliklə iki ölkə arasında sülh müqaviləsi imzalanacaqdır.

Yaponiya xarici işlər nazirinin parlament üzrə müavini Taro Honda səmimi görüş üçün minnətdarlığını bildirərək, Milli Məclisin sədri ilə görüşün onun üçün böyük şərəf olduğunu qeyd edib. ölkələrimiz arasında diplomatik münasibətlərin 30-cu ildönümünün qeyd olunması münasibətilə təbriklərini çatdırıb. O, ötən dövrdə Azərbaycan və Yaponiya arasında bir çox sahələrdə, o cümlədən siyasi və iqtisadi sahələrdə əməkdaşlığın uğurla inkişaf etdiyi bildirib. Nazir müavini Taro Honda qeyd edib ki, Azərbaycan beynəlxalq enerji təhlükəsizliyinin təmin edilməsi və regionda sülhün bərqərar olunması baxımından vacib ölkədir. Azərbaycanın Yaponiya üçün mühüm tərəfdaş olduğunu deyən qonaq qarşılıqlı faydalı əməkdaşlığın əhəmiyyətindən danışıb. O, iki ölkə arasında parlamentlərarası əməkdaşlığın inkişaf etdiyini deyib və bu baxımdan qarşılıqlı səfərlərin xüsusi rolunu qeyd edib.

Söhbət zamanı tərəfləri maraqlandıran digər məsələlərə dair də fikir mübadiləsi aparılıb.

Görüşdə Yaponiya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Əminə Ağazadə, Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev, Yaponiyanın ölkəmizdəki səfiri Cuniçi Vada və digər rəsmi şəxslər iştirak ediblər.

# Saleh Məmmədov Bakı-Quba yolundakı işlərə baxış keçirdi

***Xəbər verdiyimiz kimi, Milli Məclisin aprelin 5-də keçirilən iclasında deputat Vahid Əhmədov Bakı-Quba yolunun bərbad vəziyyətdə olması ilə bağlı məsələ qaldırmışdı. Bundan sonra Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi bu yolun təmiri ilə bağlı işlərə başlayıb.***

"Unikal"ın məlumatına görə, hazırda sözügedən yolda təmir işləri davam etdirilir. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunda aparılan tikinti-bərpa işlərinə baxış keçirib. İşlərin vaxtında və keyfiyyətlə yerinə yetirilib yekunlaşdırılması ilə bağlı tövsiyə və tapşırıqlarını verib.



# Deputatlar 4 qanuna dəyişikliyi qəbul edib




***Milli Məclis 4 qanuna dəyişikliyi qəbul edib.***

"Unikal" xəbər verir ki, bununla bağlı parlamentin bu gün keçirilən plenar iclasında məsələ müzakirə edilib.

Belə ki, "Əhalinin sağlamlığının qorunması haqqında", "Özəl tibb fəaliyyəti haqqında", "Lotereyalar haqqında" və "Bədən tərbiyəsi və idman haqqında" qanunlarda dəyişiklik edilməsi iclasın gündəliyinə daxil edilib.

Dəyişikliklər "Nağdsız hesablaşmalar haqqında" qanuna uyğunlaşdırma xarakterlidir.

Layihə birinci oxunuşda səsə qoyularaq qəbul edilib.

# Son sutkada 5 mindən çox vaksin vurulub

***Azərbaycanda son sutkada koronavirus (COVID-19) əleyhinə 5 046 vaksin vurulub.***

"Unikal" xəbər verir ki, bu barədə Nazirlər Kabineti yanında Operativ Qərargah məlumat yayıb.

Bildirilib ki, bir gündə birinci mərhələ üzrə vaksinasiya olunanların sayı 527, ikinci mərhələ üzrə vaksinasiya olunanların sayı 523, üç və daha çox doza üzrə vaksinasiya olunanların sayı 3 645, pozitiv nəticədən sonra buster doza üzrə vaksinasiya olunanların sayı 351 nəfərdir.

# MEDİA-da “E-KÖŞK” layihəsi təqdim olundu

***Bu gün Medianın İnkişafı Agentliyində “E-KÖŞK” qəzet və jurnalların elektron yayım platformasının təqdimatı olub.***

”Unikal” xəbər verir ki, çap mediası subyektlərinin rəhbərlərinin iştirakı ilə keçirilən tədbirdə bildirilib ki, qlobal informasiya mühitinin modernləşməsi, qabaqcıl texnologiyaların media sahəsində geniş tətbiqi və digər innovativ yeniliklərin sahədə yaratdığı ehtiyaclar və müşahidə edilən müasir tendensiyaların nəzərə alınaraq hazırlanan “E-köşk” portalı rəqəmsal çap mediası məhsullarının abunə və satışının təşkil edildiyi platformadır. Vurğulanıb ki, plaformanın ənənəvi çap mediasını hər kəs üçün daha əlçatan etməsi, oxuculara mütəmadi olaraq yenilənən məlumat bazasından qəzet və jurnalları zaman və məkandan asılı olmayaraq asanlıqla əldə edə bilmək imkanı yaratması nəzərdə tutulur. Qeyd olunub ki, “E-köşk” portalı vasitəsi ilə oxucular ölkədə baş verən



yeniliklərdən daima xəbərdar olmaqla yanaşı, sərbəst şəkildə rəqəmsallaşdırılmış arxivdən faydalana biləcəklər.

Baş redaktorlar bu platformanın ənənəvi çap mediasının rəqəmsal mühitə uyğunlaşması, iqtisadi dayanıqlılığının artırılması və informasiya cəmiyyətinə keçidin sürətləndirilməsi istiqamətində innovativ addım olduğunu qeyd ediblər. Sonra layihə ətrafında səsləndirilən təkliflər nəzərə alınmaqla, “E- köşk” layihəsinin yekun variantının hazırlanaraq ictimaiyyətə təqdim olunması ilə bağlı qərar qəbul olunub.

Tədbirdə həmçinin Medianın İnkişafı Agentliyi tərəfindən media subyektləri üçün hazırlanan “Redaksiya siyasəti və peşə etikası qaydaları” ilə bağlı müzakirələr keçirilib. Bildirilib ki, hazırda media subyektlərində həmin nümunəvi formaya əsasən, müzakirələr aparılır və media subyektlərinin özləri tərəfindən onların təkmilləşdirilməsi və hər bir media subyektinin özünə uyğun redaksiya siyasəti çərçivəsində həmin peşə etikası qaydalarının təsdiq olunması prosesinə başlanıb. Qeyd olunub ki, bu qaydaların tətbiq olunması, hər bir media subyektində müəlliflik hüquqlarının qorunmasına və ümumilikdə media sahəsində peşə etikasına ciddi riayət olunması prosesinə təkan verəcək.

# Azərbaycanda bu şəxslər 5 min manat cərimələnəcək

***Azərbaycanda kritik informasiya infrastrukturunun təhlükəsizliyinin təmin edilməsi üzrə səlahiyyətli orqanının (vəzifəli şəxsin) tələblərinin yerinə yetirilməməsi və ya ona maneçilik törədilməsinə görə yeni cərimə müəyyənləşir.***

“Unikal” xəbər verir ki, bu, Milli Məclisin bu gün keçirilən iclasında I oxunuşda müzakirəyə çıxarılan İnzibati Xətalar Məcəlləsinə dəyişikliklərdə əksini tapıb.

Dəyişikliklə kritik informasiya infrastrukturu obyektlərinin təhlükəsizliyi üzrə tələblərin pozulması hallarının aradan qaldırılmasına dair səlahiyyətli orqanının (vəzifəli şəxsin) tələbinin yerinə yetirilməməsinə, yaxud kibertəhdidlərin və kiberhücumların aşkarlanması, qarşısının alınması və təhlükəsizlik insidentlərinin araşdırılması üçün səlahiyyətli orqanına (vəzifəli şəxsə) lazımi şəraitin yaradılmamasına və ya maneçilik törədilməsinə görə vəzifəli şəxslər 1000 manatdan 1500 manatadək məbləğdə, hüquqi şəxslər 4000 manatdan 5000 manatadək məbləğdə cərimə olunacaq.

Layihə səsverməyə çıxarılaraq I oxunuşda qəbul edilib.

***Anar Kəlbiyev***




# Nazirlikdən əhaliyə hava xəbərdarlığı

***Fövqəladə Hallar Nazirliyi (FHN) gözlənilən hava şəraiti ilə əlaqədar əhaliyə müraciət edib.***

“Unikal” nazirliyin saytına istinadən xəbər verir ki, xəbərdarlıqda deyilir: “Milli Hidrometeorologiya Xidmətinin məlumatına görə, mayın 6-dan başlayaraq yaxın günlər ərzində ölkə ərazisində hava şəraitinin yağıntılı keçəcəyi, yağışın ayrı-ayrı yerlərdə intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, bəzi dağ çaylarından qısamüddətli daşqın və sel keçəcəyi, xüsusilə mayın 6-da və 7-də bəzi ərazilərdə güclü külək əsəcəyi proqnozlaşdırılır.

Qeyd olunanlarla bağlı Fövqəladə Hallar Nazirliyi əhaliyə müraciət edərək, gözlənilən hava şəraiti ilə əlaqədar müvafiq təhlükəsizlik qaydalarına riayət etməyə çağırır.

Belə ki, bir sıra ərazilərdə, o cümlədən Bakıda və Abşeron yarımadasında gözlənilən güclü küləklə əlaqədar yüngül konstruksiyalı və müvəqqəti tikililərdən, bina və



reklam lövhələrindən uzaq durmaq, elektrik dirəyi və naqillərinin, hündür ağacların altında dayanmamaq tövsiyə olunur. Həmçinin, güclü küləyin baş verən yanğınların söndürülməsi zamanı yaratdığı çətinlikləri nəzərə alaraq, yanğın təhlükəsizliyi qaydalarına ciddi riayət edilməlidir.

Bundan əlavə, intensiv yağıntıların səbəb ola biləcəyi daşqın və seldən qorunmaq üçün daşqın və sel təhlükəli ərazilərdən uzaq durmaq, bu təhlükə ilə üzləşdikdə dərhal yaxınlıqdakı yüksəkliyə qalxmaq tövsiyə olunur.

Həmçinin, ildırımla bağlı təhlükələrdən qorunmaq üçün elektrik cihazlarını şəbəkədən ayırmaq, telefonla (sabit şəbəkə, mobil, taksofon və s.) danışmamaq, açıq havada olarkən elektrik xətti, ildırım ötürücüsü, navalça və antenaya yaxınlaşmamaq, hündür ağacların altında daldalanmamaq və bu məqsədlə nisbətən çökək yer seçmək, avtomobildə olduqda isə hərəkəti dayandıraraq şüşələri qaldırıb ildırımın bitməsini gözləmək tövsiyə edilir.

Unutmayın: Qaydalara biganəlik - həyatımıza təhlükədir!

Təhlükə zamanı 112-yə zəng edin!



# Kərim Vəliyev Kəlbəcərə getdi - Döyüş hazırlığını yoxladı

***Müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev Kəlbəcər rayonunda dislokasiya olunan hərbi hissələrin döyüş hazırlığını yoxlayıb.***

Bu barədə ”Unikal”a Müdafiə Nazirliyindən məlumat verilib.

Baş Qərargah rəisi qoşun xidmətinin və döyüş növbətçiliyinin təşkili, eləcə də hərbi qulluqçuların sosial-məişət şəraiti ilə tanış olub.

Qeyd olunub ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin diqqət və qayğısı sayəsində qoşunların döyüş hazırlığının yüksək səviyyədə saxlanılmasını təmin etmək üçün bütün lazımi şərait yaradılıb.

General-polkovnik K.Vəliyev dövlət sərhədinin Kəlbəcər rayonu sahəsində döyüş növbətçiliyi aparan şəxsi heyətlə görüşərək onun qayğıları ilə maraqlanıb, xidmətdə fərqlənən hərbi qulluqçuları mükafatlandırıb, gələcək xidmətlərində uğurlar arzulayıb.

Sonra Baş Qərargah rəisi hərbi birliyin komandir-rəis heyəti ilə xidməti müşavirə keçirib. General-polkovnik K.Vəliyev Ali Baş Komandanın Azərbaycan Ordusu qarşısında qoyduğu tapşırıqları müşavirə iştirakçılarına çatdırıb.

Sonda müasir ümumqoşun döyüşünün aparılması üsulları nəzərə alınmaqla bölmələrin döyüş qabiliyyətinin daha da yüksəldilməsi, silah və döyüş texnikasının effektiv tətbiqi məqsədilə təlimlərin real döyüş şəraitinə uyğun keçirilməsi ilə əlaqədar müdafiə nazirinin göstərişləri aidiyyəti üzrə şəxsi heyətə çatdırılıb.

# Bu qanuna dəyişiklik qəbul edildi

***“İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” Qanunda dəyişikliklər qəbul edilib.***

“Unikal” xəbər verir ki, bununla bağlı Milli Məclisin bu gün keçirilən plenar iclasında layihə müzakirəyə çıxarılıb. Müzakirələrdə Dövlət Təhlükəsizliyi Xidmətinin rəis müavini İlqar Musayev də iştirak edib.

Dəyişikliklərə əsasən, Qanuna yeni fəslin əlavə edilməsi təklif olunur. Bununla qanunvericiliyə “kritik informasiya infrastrukturu” anlayışı gətirilir.

Layihə haqqında məlumat verən İnsan hüquqları komitəsinin sədri Zahid Oruc qeyd edib ki, kritik informasiya infrastrukturunun kibertəhlükəsizliyinə prioritet məsələ kimi baxılmasının zərurətini nəzərə alaraq və Azərbaycan Respublikasında kritik informasiya infrastrukturunun və onun tərkibinə daxil olan informasiya sistemlərinin, informasiya-kommunikasiya şəbəkələrinin və avtomatlaşdırılmış idarəetmə sistemlərinin təhlükəsizliyinin gücləndirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidenti tərəfindən 17 aprel 2021-ci il tarixində “Kritik informasiya infrastrukturunun təhlükəsizliyinin təmin edilməsi sahəsində bəzi tədbirlər haqqında” Fərman imzalanıb.

Qeyd olunan qanun layihəsində kritik informasiya infrastrukturu, onun obyekti və subyekti, digər anlayışlar, kritik informasiya infrastrukturunun təhlükəsizliyinin təmin edilməsi sahəsində səlahiyyətli orqan, habelə kritik informasiya infrastrukturunun təhlükəsizliyinin təmin edilməsi qaydasının hüquqi əsasları müəyyən edilir.

Sənəd deputatların müzakirəsindən sonra səsə qoyularaq, qəbul olunub.

# “Ciddi struktur dəyişiklikləri aparılacaq”

## Fəzail Ağamalı: “Cəmiyyət inkişaf etdikcə, idarəçilik sistemində də dəyişikliklər, strukturların yenilənməsi, onun daha çevik və işlək olması qaçılmazdır”

***Bu günlərdə Prezident İlham Əliyev beynəlxalq konfransda çıxışı zamanı bildirib ki, yeni idarəçilik modeli sınaqdan keçirilir. ”Qarabağda sınaqdan keçirdiyimiz yeni sistem fərqli olacaq və düşünürəm ki, yekun sınaqlar bitəndən sonra bu sistemi Azərbaycanın digər ərazilərinə də tətbiq etmək və regionlarda dövlət idarəçiliyini təkmilləşdirmək mümkün olacaq”, - deyə dövlət başçısı qeyd edib. Bu baxımdan, yaxın illərdə icra başçılarının Prezidentin xüsusi nümayəndəsi ilə əvəzlənəcəyi gözlənilirmi? Gözlənilən dəyişikliklər hansı formada ola bilər? “Unikal”a müsahibə verən Milli Məclisin deputatı, Ana Vətən Partiyasının sədri Fəzail Ağamalı bu və ya digər sualları cavablandırıb:***

- Hazırda Prezidentin xüsusi nümayəndəsi işğaldan azad olunmuş rayonlara təyin edilir. Bunun gələcəkdə idarəetmədə necə yer alacağını da Cənab Prezident bilir. Düşünürəm ki, bu uğurlu bir seçimdir. Təyinatlar da uğurludur. Prezidentin işğaldan azad edilmiş rayonlarla bağlı qərarlarına çevik münasibət hökməndir. Seçilmiş şəxslər və onlara verilmiş səlahiyyətlər də özünün müsbət nəticəsini verəcək. Bu, cənab Prezidentin səlahiyyətində olan məsələdir.

***-Bunun ardınca digər sahələrdə də struktur islahatlarının aparılması gözlənilirmi?***

-Ölkə Prezidentinin idarəçilik sistemi və fəlsəfəsi reallığa söykənən, ciddi effekt verən sistemdir. Bu, inkişafda olan bir yanaşmadır. Cəmiyyət inkişaf etdikcə, idarəçilik sistemində də dəyişikliklər, strukturların yenilənməsi, onun daha çevik və işlək olması qaçılmazdır. Bu baxımdan, dövlət başçısı özünün idarəçilik sistemində həmin şərtlərə xüsusi olaraq diqqət yetirir. Azərbaycan dövlətçiliyinə ciddi töhvələr verən struktur dəyişiklikləri bundan sonra da aparılacaq.

***-Milli Məclisin əvvəlki iclaslarında deputat həmkarlarınızdan bəziləri çıxışı zamanı bildirib ki, müəyyən məsələlərlə bağlı nazirlərə zəng etməli olurlar. Bu zaman elə nazirlər var ki, onların telefonlarına cavab vermirlər. Siz də belə hallarla rastlaşırsınızmı?***

-Bir çox vacib məqamlarda seçicilərimizin qaldırdığı ciddi xarakter daşıyan məsələlərlə bağlı nazirlərə və ya komitə sədrlərinə müraciət edirəm. Bu müraciət ya yazılı şəkildə, ya da telefon vasitəsilə olur. Bununla bağlı problem yaşamıram. Ola bilir ki, zəng edirəm, iclasdadır və ya iş yerində olmur, bu zaman düşünmürəm ki, telefonuma cavab verilmir. Sonradan zəng edirlər, hansı məsələ ilə bağlı əlaqə saxladığımla bağlı maraqlanırlar. Olur ki, zəng edirəm həmin an telefonuma cavab verilir. Bu məsələ ilə bağlı problem yaşamıram.

***-Hazırda cəmiyyətdə ən çox narazılıq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə bağlıdır. Parlamentin ötən iclaslarının birində siz də bu məsələyə toxundunuz. Şikayətlər Pensiyalarla bağlı daha çox eşidilir. Bununla bağlı nazirlik tərəfindən hansı addımlar atılmalıdır?***

-Bu problem var, bir daha onun üzərinə qayıtmaq istəmirəm. Burada hər şey bəllidir. Çox istərdik ki, bu cür problemlər olmasın. Əlillərə, ehtiyacı olan insanlarımıza, bizə böyük qürur verən, başımızı uca edən Vətən müharibəsinin qazilərinə, şəhid ailələrinə xüsusi diqqət yetirmək lazımdır. Məhz bu nazirliyin də vəzifəsi ondan ibarətdir. Sosial ehtiyacı olan insanların məşğulluğunun təmin edilməsi, onların ehtiyaclarının ödənilməsi birbaşa adıçəkilən nazirliyin funksiyasına daxildir. Arzulayıram ki, oradakı işlər qaydasında olsun.

***- Cəmiyyətdə ən çox müzakirə olunan məsələlərdən biri də işsizliklə bağlıdır. Pandemiya bir sıra iş yerlərində müəyyən problemlər yaratdı. İşsizliyin aradan qaldırılması üçün hansı addımlar atılmalıdır?***

-Bu gün işsizlik var və bunu inkar etmək olmaz. Çalışmalıyıq ki, işsizlik sürətlə aradan qaldırılsın. Bunun üçün ölkə Prezidenti səviyyəsində ciddi addımlar atılır. Pandemiya dövründə bizdən asılı olmayan səbəblərə görə, işsizlik məsələsi ciddi xarakter daşıdı. Artıq pandemiya qadağaları aradan götürülür. Xəstəliyə yoluxma getdikcə azalır. Tezliklə bu bəla bəşəriyyətin başının üzərindən gedər. Bu yaxınlarda iqtisadiyyat naziri Mikayıl Cabbarov hər il 100 min iş yerinin açılması ilə bağlı proqnoz verdi. Bununla bağlı dövlətin xüsusi proqramının olduğunu bildirdi. Əminik ki, nazirin bildirdiyi bu fikirlər reallaşacaq. Ölkədə işsizliyin aradan qaldırılması üçün ciddi tədbirlər həyata keçiriləcək. İşsizliyin aradan qaldırılması üçün sahibkarlığın inkişafına xüsusi diqqət yetirmək lazımdır. Azərbaycan bazar iqtisadiyyatına söykənən bir ölkədir. Dövlət özündən asılı olan mümkün tədbirləri görür ki, sahibkarlıq inkişaf etsin və onlar yeni müəssisələr yaratsınlar, yeni iş yerləri açılsın. Əvvəki dövrlərdən fərqli olaraq sahibkarlar üçün geniş imkanlar yaradılıb. Amma sahibkarlığın inkişafında kreditlərin verilməsində hələ də problemlər mövcuddur. Ümid edirik ki, Azərbaycan Mərkəzi Bankının yeni sədri Taleh Kazımov bu problemi diqqətlə araşdıracaq, bank sistemində olan problemləri, eyni zamanda sahibkarlığın maliyyələşməsi üçün kreditlərin daha əlçatan və aşağı faizlə olması öz həllini tapacaq. Belə olarsa, Azərbaycanda daha geniş miqyasda iş yerləri açılar, işsizlik problemi aradan qalxar.



## “Görünən odur ki, ərzaq məhsullarının, xüsusi ilə dərmanların qiyməti fantastik şəkildə qalxır, buna xüsusi diqqət yetirmək lazımdır ki, dərmanların qiyməti bu formada artırılmasın”

***-Pandemiyanın yaratdığı problemləri qeyd etdiniz. Artıq bir çox məhdudiyyətlər aradan götürülüb. Amma həmin dövrdə bir çox insanlara cərimələr yazılıb. Pandemiya cərimələri silinə bilərmi?***

-Mən də həmin cərimələrin silinməsinin tərəfdarıyam. Elə cərimələr var ki, onlar silinə bilər. Həmin cərimələr xüsusi məsuliyyət yaratmırsa, gələcəkdə qanun pozuntularını stimullaşdırmırsa, onları ləğv etmək olar. Onun təsnifatını aparmaq lazımdır. Tərəfdarıyam ki, bir sıra cərimələrin ləğv olunması yaxşı olardı. Burada söhbət pandemiya ilə bağlı cərimələrdən gedir.

***-Qiymət artımları da ən çox müzakirə olunan məsələlərdən biridir. Bunun qarşısını almaq üçün hansı addımlar atılmalıdır?***

-Qiymət artımının obyektiv və subyektiv səbəbləri var. Elə məsələlər var ki, bizdən asılı deyil. Belə ki, dünyada da qiymət artımı gedir. Bu Rusiya-Ukrayna müharibəsi, pandemiya və s. ilə bağlıdır. Bununla yanaşı bir sıra möhtəkirlər var ki, yaranmış mövcud vəziyyətdən istifadə edərək qiymətləri artırırlar. Buna qarşı müvafiq qurumlar kəskin, ardıcıl və sistemli mübarizə aparmalıdırlar. Görünən odur ki, ərzaq məhsullarının, xüsusi ilə dərmanların qiyməti fantastik şəkildə qalxır. Buna xüsusi diqqət yetirmək lazımdır ki, dərmanların qiyməti bu formada artırılmasın. Nəzərə almaq lazımdır ki, dərmanların bu qiyməti aztəminatlı ailələrin büdcəsinə ciddi təsir göstərir. Belə ki, onların büdcəsi bunun üçün kifayət qədər imkan yaratmır. Müvafiq qurumlar bu problemin aradan qaldırılması üçün ciddi mübarizə aparmalıdır.

***-Dərmanların qiymətini qeyd etdiniz. Ölkəmizdə icbari tibbi sığorta tam olaraq həyata keçirilir. Bununla yanaşı bir sıra problemlərin olduğu da bildirilir...***

-Bu, yeni bir sistemdir. Təbii ki, yeni sistem qurulanda uğurlarla bərabər, müəyyən çatışmazlıqlar, səhvlər də olur. Bu da təbiidir. Əsas odur ki, ölkədə tibbi sığorta ilə bağlı proses gedir. Onun qanunvericilik bazası yaradılıb, maliyyə sistemi artıq həll olunub. Əminəm ki, bir neçə ildən sonra bu tam oturuşmuş, bütün vətəndaşlarımızı razı sala biləcək səviyyədə olacaq.

***- Milli Məclisin İntizam komissiyasının sədr müavinisiz. Bu il ərzində komissiyaya şikayət daxil olubmu?***

-Millət vəkilləri Milli Məclisin nizamnaməsinə uyğun olaraq öz fəaliyyətlərini yüksək səviyyədə qururlar. Ona görə də komissiya hazırda hər hansı bir deputatın fəaliyyətini müzakirə etməyə hazırlaşmır. Deputatların hərəkətlərində və fəaliyyətlərində onların İntizam komissiyası səviyyəsində müzakirə etməyə əsas verəcək addımlar atılmayıb.

***Anar Kəlbiyev***

# Hacıbala Abutalıbov niyə akademik olmadı...

## Sabiq mer və keçmiş vitse-premyerin təqaüdə çıxdıqdan sonra "elmə qayıtmamasının" sirri nədir?



***2019-cu ildə yaş həddinə görə təqaüdə göndərilən Baş nazirin keçmiş müavini Hacıbala Abutalıbov demişdi ki, bundan sonra elmi fəaliyyətlə məşğul olacaq. Bildirilirdi ki, o, Azərbaycan Milli Elmlər Akademiyasındakı (AMEA) iş yerinə gedəcək.***

Məsələ burasındadır ki, 78 yaşlı sabiq vitse-premyer Akademiyanın Fizika İnstitutunda "Yarımkeçiricilərin kvant elektronikası" laboratoriyasının müdiri postunu tuturdu. O, həmin vəzifəyə 1988-ci ildə təyin edilib.

Əslində tərcümeyi-halına baxdıqda Hacıbala müəllimin elmi karyerasına elə də qeyri-ciddi yanaşmaq olmaz: 1965-ci ildə Azərbaycan Dövlət Universitetinin fizika-riyaziyyat fakültəsini bitirib, 1968-ci ildə keçmiş SSRİ-nin Leninqrad şəhərində (indiki Sankt-Peterburq) A.F.İoffe adına Fizika-Texnika İnstitutunda aspiranturaya daxil olub, SSRİ Elmlər Akademiyasının müxbir üzvü, Lenin mükafatı laureatı Yevgeni Fyodoroviç Qrossun və Marina Lazaryevna Bellenin rəhbərliyi altında 1976-cı ildə namizədlik dissertasiyasını müdafiə edib. 1987-ci ildə Lenin mükafatı laureatı akademik Aleksandr Aleksandroviç Kaplyanskinin rəhbərliyi ilə həmin institutda fizika-riyaziyyat elmləri doktoru yüksək elmi dərəcəsi adına layiq görülüb. Fizika-riyaziyyat elmləri doktoru, professordur. Amerika, İngiltərə, Fransa, Almaniya, Rusiya və sair dövlətlərin qabaqcıl elmi jurnallarında çap olunan 200-dən çox elmi əsərin və monoqrafiyanın, 30-dan çox elmi ixtiranın müəllifidir.

Əslində, Hacıbala müəllimin karyerasının yüksəliş dövrü 1995-ci ilin fevralından başlayıb: Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı olub və bu vəzifəni 2000-ci ilədək icra edib. 2000-ci ilin yanvarından 2001-ci ilin yanvarınadək baş nazirin müavini vəzifəsində çalışıb. Daha sonra Bakı Şəhər İcra Hakimiyyətinin başçısı vəzifəsinə təyinat alıb. Bu postu itirdikdən sonra isə bir müddət yenidən Baş nazirin müavini işləyib...

Sonuncu postu itirdikdən sonra isə yenidən elmi fəaliyyətə qayıdacağının anonsunu verib.

Lakin əldə etdiyimiz məlumata görə, Hacıbala müəllim yaş həddinə görə təqaüdə göndərildikdən sonra Elmlər Akademiyasının ətrafına belə ayaq basmayıb.

Əslində bunda təəccüblü heç nə yoxdur: belə ki, Abutalıbov Bakı Şəhər İcra Hakimiyyətinin rəhbəri olduqdan sonra 1988-ci ildə müdir təyin edildiyi "Yarımkeçiricilərin kvant elektronikası" laboratoriyası da ləğv edilib.

Lakin deyilənə görə, laboratoriyaya məxsus otaqlar, hətta müdir kabineti son vaxtlaradək qorunub saxlanılırmış. Hətta sabiq mer öz cibindən həmin kabinetin xərclərini də qarşılayırmış. Bununla belə, məlum laboratoriya barədə iddialar mediaya çıxdıqdan sonra Hacıbala müəllim ora ilə əlaqəsini kəsib.

Daha bir maraqlı iddia: Abutalıov hələ BŞİH başçısı olarkən ona yaxın ətrafı tərəfindən Milli Elmlər Akademiyasının öncə müxbir, sonra da həqiqi üzvü olmaq üçün öz imkan və imtiyazlarından istifadə eləmək təklif olunub. Ancaq keçmiş mer bildirib ki, elmə hörməti böyükdür və bu sahə ilə məşğul olmadığı halda hansısa yollarla "akademik" ünvanı almasını rəva bilmir.

Bu deyilənlərin nə qədər doğru olub-olmadığını qəti söyləmək mümkün deyil. Hər halda fakt budur ki, Hacıbala müəllim 25 ilə yaxın müddətdə kifayət qədər mühüm postlar tutub, həmin postlar sayəsində yetərincə oliqarxlaşıb. El təbirincə desək, "pula pul deməyib". Çoxsaylı obyektlərin, mənzillərin sahibinə çevrilib, geniş biznes şəbəkəsi qurub. Onun obyektlərinin, mənzillərinin, mülklərinin siyahısını saymağa başlasaq, buna qəzetimizin ayrıca bir nömrəsi gərəkdir.

Di gəl, korrupsiya hesabına əldə edilən bu qədər varidata baxmayaraq, o, elmi titullarını böyütmək barədə düşünməyib.

Hərçənd ki, Azərbaycan reallığında elmlə yaxından-uzaqdan heç bir əlaqəsi olmayanların əlinə azacıq sərvət keçən kimi özlərinə elmi iş yazdırıb saxta elmi dərəcə almaqlarına dair kifayət qədər nümunə sadalamaq mümkündür.

Abutalıbovun bəs deyincə vardövlət sahibi olmasına, hətta "akademik" ünvanını belə asanlıqla əldə etmək imkanına baxmayaraq buna cəhd eləməməsinin sirri, həqiqətən də, maraq doğurur. Görəsən, onu əngəlləyən nə imiş: doğrudan da, elmə hörmətlə yanaşması, alimlik karyerasını qondarma şəkildə zənginləşdirmək istəməməsi, yoxsa kimlərinsə Hacıbala müəllimin pul gücünə "elmi sıçrayış" əldə etməsinə nail olması?!

Hər halda reallıq budur ki, yüksək vəzifədən yaş həddinə görə təqaüdə göndərildikdən sonra ömrünün qalan hissəsini elmi fəaliyyətə həsr edəcəyini bildirsə də, Hacıbala müəllimin bu fəaliyyətindən nə səs var, nə soraq. Onun sədası yenə də vaxtilə vəzifədə olarkən qol qoyduğu və zaman keçdikcə üzə çıxan korrupsiya qoxulu, rüşvət ətirli qalmaqallardan gəlir...

***Toğrul Əliyev***

# Tanınmış aparıcıya nazirlikdə vəzifə verildi

***Aparıcı Alidə Mustafayevaya Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyində vəzifə verilib.***

"Unikal" xəbər verir ki, o, nazirliyin tabeliyində "Aztelekom" MMC-yə mətbuat katibi təyin olunub.

A.Mustafayeva, həmçinin "Azərbaycan Televiziyası"nda xəbər aparıcısı kimi fəaliyyətini davam etdirəcək.

# Deputat "Alternativ xidmət haqqında" qanun qəbul olunmasını təklif etdi

***"44 günlük Vətən müharibəsinin özü də göstərdi ki hərbi çağırışla ordu sıralarına cəlb olunanlarla müqavilə ilə işə cəlb olunanlar arasında fərq var".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin bu gün keçirilən iclasında deputat Siyavuş Novruzov deyib.

O bildirib ki, ərazi bütövlüyümüz təmin olunduğu üçün alternativ xidmətlə bağlı düşünməliyik.

"Azərbaycanda "Alternativ xidmətlə bağlı" qanun qəbul etməliyik. Bunu alternativ hərbi xidmətlə qarışdırmaq olmaz. Hərdən bunu qarışdırırlar. Alternativ hərbi xidmət müqavilə əsasında hərbi xidmətdir. Alternativ xidmət isə çağırış əsasında həmin şəxs döyüş bölgələrində deyil, təsərrüfat, sanitar və digər hissələrdə qulluq keçir".

***Anar Kəlbiyev***

# "Şuşa" adından istifadə ilə bağlı qaydalar müəyyənləşir

***Milli Məclis mayın 5-də keçirilən iclasında Şuşa şəhəri ilə bağlı qanun layihəsini ikinci oxunuşda qəbul edib. Dəyişikliyə əsasən, "Şuşa" sözündən istifadəyə yalnız müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qurumun razılığı ilə yol veriləcək.***

"Unikal" xəbər verir ki, "Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında" Qanunda dəyişiklik edilməsi və Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində, "Sahibkarlıq fəaliyyəti haqqında", "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında", "Bədən tərbiyəsi və idman haqqında", "Mədəniyyət haqqında" və "Reklam haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələri ikinci oxunuşda müzakirəyə çıxarılıb.

Bildirilib ki, Azərbaycan Prezidenti tərəfindən "Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında" Qanuna əlavə və dəyişikliklərin olunması, bundan irəli gələrək bir sıra qanunlara uyğunlaşdırma xarakterli düzəlişlərin edilməsi ilə əlaqədar qanun layihələri təqdim olunub.

Vurğulanıb ki, Şuşa şəhərində "Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında" Qanun və digər normativ hüquqi aktlarla müəyyən edilən hüquqi tənzimləmə tətbiq olunur. Bu hüquqi tənzimləmə Şuşa şəhərinin ərazisində abidələrin bərpası, qorunması, öyrənilməsi, memarlıq və şəhərsalma fəaliyyəti, reklam fəaliyyəti, habelə müxtəlif səviyyəli tədbirlərin keçirilməsi və digər sahələri əhatə edir.

Şuşa şəhərində mövcud abidələrin tam həcmdə qorunması məqsədilə bu qanunun 7.5-ci maddəsindən "arxeoloji" sözünün çıxarılması təklif edilir. Eyni zamanda, "Şuşa" adından istifadə etmək üçün xüsusi qaydaların tətbiq edilməsi məqsədilə həmin qanuna 3-1-ci maddənin əlavə edilməsi təklif olunur.

Qeyd edilib ki, yeni maddədə nəzərdə tutulan hallarla bağlı Şuşa Şəhəri Dövlət Qoruğu öz adından və rəsmi "Şuşa" adından istifadə etməkdə müstəsna hüquqa malikdir. Əlavəyə əsasən, hüquqi şəxslərin, o cümlədən media subyektlərinin adlarında, mükafatların və təltiflərin adlarında, yerli, ölkə və ya beynəlxalq səviyyəli tədbirlərin, o cümlədən idman və digər yarışların, konsertlərin, festivalların, sərgilərin, konfransların, seminarların adlarında, kommersiya və reklam məqsədilə, əmtəə nişanlarında və coğrafi göstəricilərdə "Şuşa" sözündən istifadəyə yalnız müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qurumun razılığı ilə yol verilir. Dəyişikliklər müzakirələrdən sonra səsverməyə çıxarılaraq ikinci oxunuşda qəbul edilib.



# Ceyhun Bayramov Yaponiya rəsmilərini qəbul edib

***Xarici işlər naziri Ceyhun Bayramov Yaponiya xarici işlər nazirinin parlament üzrə müavini Honda Taro ilə görüşüb.***

Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsindən "Uikal"a verilən xəbərə görə, nazir Ceyhun Bayramov Yaponiya nümayəndə heyətini salamlayaraq, bu il iki ölkə arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinin qeyd olunmasını vurğulayıb və Azərbaycanın Yaponiya ilə əməkdaşlığa böyük əhəmiyyət verdiyini qeyd edib.

Öz növbəsində, Yaponiya xarici işlər nazirinin parlament üzrə müavini Honda Taro iki ölkə arasında diplomatik münasibətlərin 30 illiyinin qeyd olunması münasibətilə təbriklərini çatdıraraq bu müddət ərzində Azərbaycan və Yaponiya arasında bir çox sahələrdə, o cümlədən siyasi və iqtisadi sahələrdə əməkdaşlığın uğurla inkişaf etdiyi bildirib. Nazir müavini Honda Taro enerji təhlükəsizliyi baxımından mühüm rol oynayan Azərbaycanın regionda Yaponiyanın mühüm tərəfdaşı olduğunu ifadə edib.

Tərəflər, həmçinin Azərbaycan ilə Yaponiya arasında energetika, alternativ enerji, iqtisadiyyat, humanitar, parlamentlərarası əlaqələr və digər sahələrdə əməkdaşlıq münasibətləri ətrafında fikir mübadiləsi aparıblar.

Ceyhun Bayramov qarşı tərəfə, Azərbaycanın azad olunmuş ərazilərindəki vəziyyət, işğal dövründə Azərbaycan ərazilərinin Ermənistan tərəfindən məqsədyönlü şəkildə dağıdılması, mədəni irsin talan edilməsi, azad olunmuş ərazilərdə Azərbaycan hökuməti tərəfindən aparılan geniş miqyaslı bərpa və quruculuq işləri, minaların təmizlənməsi, ekologiya və ətraf mühitin qorunması sahəsində görülən işlər barədə ətraflı məlumat verib. Bu xüsusda nazir, Yaponiya şirkətlərinin quruculuq prosesində iştirakını minnətdarlıqla ifadə edib.

İşğal faktorunun aradan qaldırılması ilə iki ölkə arasında münasibətlərin normallaşdırılması üçün imkanların yaradıldığını qeyd edən nazir, Azərbaycanın regionda davamlı sülhün və inkişafın bərqərar olması üçün atdığı əməli addımları qeyd edib.

Görüşdə tərəflər arasında, həmçinin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq, regional məsələlər, o cümlədən Ukraynadakı vəziyyət, habelə qarşılıqlı maraq doğuran digər məsələlər üzrə fikir mübadiləsi aparılıb.

# İTV-nin baş direktorluğuna sənəd qəbulu başladı

***Audiovizual Şura İctimai Televiziya və Radio Yayımları Şirkətinin baş direktorunun səlahiyyət müddətinin bitməsi ilə əlaqədar olaraq bu vəzifəyə seçilmək üçün namizədin müəyyənləşdirilməsi məqsədi ilə sənəd qəbulu elan edib.***

Şuradan verilən xəbərə görə, namizədlərə dair şərtlər sırasında namizədin Azərbaycan Respublikasının vətəndaşı və ali təhsilli olması var.

Əvvəllər ağır və ya xüsusi ağır cinayətlərə, habelə ictimai mənəviyyat əleyhinə olan cinayətlərə görə məhkum edilmiş, habelə məhkumluğu ödənilməmiş, fəaliyyət qabiliyyətsizliyi məhkəmə tərəfindən təsdiq olunmuş şəxslər müsabiqədə iştirak edə bilməzlər.

İctimai Televiziya və Radio Yayımları Şirkətinin baş direktoru vəzifəsinə namizədlər aşağıdakı sənədləri 06 May 2022-ci il tarixdən 15 May 2022-ci il tarixədək Audiovizual Şuraya təqdim etməlidirlər.

# Təhsil Nazirliyində "Misir Mərdanov havası"...

## Hesablama Palatasının aşkarladığı pozuntular nədən xəbər verir?

***Ötən il Təhsil Nazirliyində dövlət ehtiyaclarının həcminin tam qiymətləndirilməməsi, mövcud imkanların nəzərə alınmaması və malların xüsusiyyətlərinin dəqiq müəyyənləşdirilməməsi, alınmış malların bəzi hallarda istifadəsiz saxlanılmasına səbəb olmaqla səmərəsiz və artıq xərclərə gətirib çıxarıb.***

Bu barədə "Hesablama Palatasının 2021-ci ildə fəaliyyəti haqqında" hesabatında Təhsil Nazirliyində dövlət satınalmalarının hüquqi aktlara uyğunluğunun auditinin nəticələrindən çıxarışda qeyd edilib.Hesabatda bildirilib ki, dövlət satınalmalarının keçirilməsi zamanı podratçılarla bağlı müəyyən edilən tələblər bəzi hallarda rəqabətliliyin təmin edilməsinə təsir göstərib, dövlət ehtiyaclarının ödənilməsi üçün müvafiq podratçının düzgün müəyyənləşdirilməməsi və satınalma müqavilələrinin icrasına nəzarət tam təmin olunmayıb.

Malların (işlərin və xidmətlərin) satınalınması zamanı tələbatın tam olaraq araşdırılmaması, eyni zamanda müqavilə şərtlərinə, o cümlədən icra müddətlərinə riayət edilməməsi son nəticədə müqavilələrin büdcə ili ərzində tam icra olunmaması və vəsaitlərin qabaqcadan ödəniş edilməklə və ya akkreditiv hesablara köçürməklə istifadəsiz saxlanılmasına səbəb olub.

Göründüyü kimi, Hesablama Palatasının ortaya çıxardığı nöqsanlar kifayət qədər ciddidir və belə qənaətə gəlməyə əsas verir ki, son illərdə nazirliyin rəhbərliyi bir neçə dəfə dəyişdirilsə də, bir məqam dəyişməyib: bəziləri hələ də "köhnə hamam, köhnə tas" prinsipi ilə işləməyə üstünlük verir, səmərəsiz xərcləmələrdən tutmuş qeyri-şəffaf satınalmaladək bir çox qanunsuzluqlara qol qoymaqdan çəkinmirlər. Bu isə daha çox Misir Mərdanovun nazir olduğu illərə xas işlərdir.

Qeyd edək ki, son zamanlar müxtəlif orta məktəblərin direktorlarının valideynlərdən və müəllimlərdən pul yığmasını sübut edən səs yazılarının yayılması da, az qala, adət halını alıb. Məsələn, bir neçə ay əvvəl Bakı şəhərində yerləşən 189-190 nömrəli tam orta məktəbin direktoru Ceyran Kuliyeva işdən çıxarılmışdı. Buna səbəb direktorun məktəbdəki xərcləri təmin etmək üçün valideynlərdən pul yığılması ilə bağlı yayılan səs yazısı idi. Direktor həmin səs yazısında "Siz fikirləşmirsiniz ki, məktəbin xərclərini nə ilə ödəməliyik?", - deyirdi.

Bir neçə gün əvvəl isə Sumqayıt şəhərində yerləşən 26 saylı orta məktəbin direktoru olduğu bildirilən Arzu Şükürovanın rüşvət istədiyinə dair səs yazısı yayılmışdı.

Məsələ ilə bağlı Sumqayıt rayon Təhsil Şöbəsindən verilən açıqlamada deyilirdi ki, Sumqayıt şəhəri 26 nömrəli tam orta məktəbin direktor təyin olunanadək direktor vəzifəsi müvəqqəti olaraq məktəbin sinifdənxaric və məktəbdənkənar işlər üzrə direktor müavininə həvalə edilib: "Sözügedən məsələ ilə bağlı səs yazısı təsərrüfat işləri üzrə direktor müavinin texniki işçilərdən pul tələb etməsi ilə bağlıdır. Bununla əlaqədar olaraq təsərrüfat işləri üzrə direktor müavini vəzifəsindən azad edilib, direktor vəzifəsinin həvaləsi isə direktor müavinindən geri götürülüb..."

Bir sözlə, hər mənada görünən odur ki, Misir Mərdanovun təhsil nairi postundan az qala 8 ildir uzaqlaşdırılmasına baxmayaraq təhsil sistemində hədsiz dərəcədə geniş vüsət alan rüşvət, mənimsəmə kimi cinayətlərin kökünü qazımaq mümkün olmayıb. Halbuki Mərdanovu əvəzləyən yeni nazirlərin ilk mesajları məhz bu cür neqativ halların aradan qaldırılması ilə bağlı olurdu. Elə hazırkı təhsil naziri Emin Əmrullayev də rüşvət və korrupsiya kimi qanunsuz əməllərlə ciddi mübarizəyə dair mesajlar verirdi; lakin Hesablama Palatasının aşkarladığı pozuntulardan tutmuş təhsil müəssisələrinin rəhbərlərinin qalmaqallı səs yazılarınadək, müxtəlif faktlar bizə ölkə təhsilində "Mərdanov ənənəsi"nin hələ də bu və ya digər dərəcədə yaşadığını göstərir.



Hətta iş o yerə çatıb ki, son vaxtlar müsabiqə və müsahibə yolu ilə işə qəbul edilmiş bəzi direktorların qanunsuz əməlləri ilə bağlı hallar da artıb. Bu isə təəssüf doğurur. Çünki belə məktəb direktorlarının köhnə vərdişlərdən uzaq dayanacağına inam çox idi. Elə təhsil ekspertləri də bu qənaəti bölüşürdülər. Onlar ortaya çıxarılan qanunsuzluqlara zamanında şəhər və yaxud rayon təhsil şöbələrinin göz yumduqlarını vurğulayır, həmin şöbə, yaxud idarə rəislərini də baş verənlərdə məsuliyyət sahibi göstərirdilər. Deyirdilər ki, məhz bunun nəticəsində insanların təhsilə inamı azalıb.

Lakin bir nüansı nəzərdən qaçırmaq olmaz: reallıq onu göstərir ki, Misir Mərdanovun təhsil naziri olduğu dövrə xas zərərli vərdişlərin tamamilə aradan qaldırılması üçün yalnız ümumi sözlərlə kifayətlənmək yetərli deyil. Bunun üçün daha radikal, kəskin addımlar atılmalıdır. Təhsilin, məktəbin, müəllim adının rüşvətlə, pulyığımları ilə, qeyri-şəffaf satınalmalarla, səmərəsiz, şişirtmə xərclərlə assosiasiya olunmasına heç bir vəchlə yol verilməməli, bundan ötrü isə qanunun müəyyənləşdirdiyi ən sərt cəzalara əl atılmalıdır.

Təhsilsiz gələcək yoxdur.

Rüşvət və korrupsiyanın olduğu yerdə isə təhsil yoxdur!

***Toğrul Əliyev***

# Bəzi iri məmurlara yoxlama şoku...

## Bir sıra idman federasiyaları müəyyən vəzifəlilər üçün "pulsilmə" rolu oynayır? - SENSASİON İDDİALAR...



***Ölkə başçısı yeni gənclər və idman nazirini bu vəzifəyə təyin olunması ilə əlaqədar videoformatda qəbul edərkən demişdi ki, idman sahəsində buraxılan nöqsanlar ciddi araşdırılmalıdır, ciddi təhlil aparılmalıdır.***

"Son Olimpiya Oyunlarında medallar qazanmış idmançılarımız bizim təcrübəli idmançılardır. Demək olar ki, veteran idmançılardır. Onların arasında gənc nəslin nümayəndələri yoxdur və bu, çox ciddi təhlil edilməlidir. Necə ola bilər ki, nəsillər arasında artıq belə bir ara, elə bil ki, məsafə yaranır. Son illərdə bütün bölgələrdə idman obyektlərinin tikintisi geniş vüsət almışdır, təkcə bölgələrdə 50-yə yaxın idman-olimpiya kompleksimiz fəaliyyət göstərir. Onların fəaliyyəti ciddi təftiş edilməlidir, orada məşq prosesi nə səviyyədədir, uşaqlar, yeniyetmələr idman bölmələrinə gəlirmi, gəlmirmi, idmanla məşğul olmaq üçün şərait nə dərəcədədir? Çünki biz, bu infrastrukturu, bu kompleksləri o məqsədlə yaratmışıq ki, həm idmanın kütləviliyi artsın, eyni zamanda, peşəkar idmançılar yetişsin. Nəzərə alsaq ki, Tokio Olimpiya Oyunlarında gənc idmançılar medallar qazana bilmədilər, bu, çox ciddi təftiş edilməlidir. Klublardakı vəziyyətlə bağlı təhlil aparılmalıdır. Yəni, biz nəticə çıxarmalıyıq. Biz, əlbəttə, qələbələrlə fəxr edə bilərik. Ancaq çatışmazlıqlar da var və onlar aradan qaldırılmalıdır. Bu sahədə şəffaflıq tam təmin edilməlidir və bütün xoşagəlməz hallara qarşı ciddi mübarizə aparılmalıdır", - prezident bildirmişdi.

Təzəlikcə isə məlum oldu ki, ölkənin ali audit qurumu - Hesablama Palatası idman federasiyalarına ayrılan vəsaitin auditini aparacaq. Palata sədri Vüqar Gülməmmədovun Milli Məclisdə rəhbərlik etdiyi qurumun ötənilki fəaliyyəti haqqında hesabatın müzakirəsi zamanı bu barədə anonsu kifayət qədər diqqətəlayiqdir və həmin yoxlama ortaya yetərincə ilginc nüanslar çıxara bilər.

Əvvəla, əksər ekspertlərin fikrincə, Azərbaycan idmanında ən böyük problemlərdən biri müxtəlif idman növləri üzrə milli federasiyalara məmurların rəhbərlik etməsidir. Məsələn, iqtisadçı Natiq Cəfərlinin bir müddət öncə mediada bu mövzu ilə bağlı söylədiklərini yada salaq: "Heç kimə sirr deyil ki, nazirlərin, komitə sədrlərinin idman federasiyalarına rəhbərlik etməsi onların həmin federasiyalara qeyri-rəsmi pul xərcləməsinə səbəb olur. Yəni onları ona görə federasiya rəhbəri təyin edirlər ki, həmin sahələrə pul xərcləsinlər. O pulun mənbəyi də bilinmir. Çox zaman da təəssüf ki, korrupsiya pulları olur. Və həmin federasiyaların fəaliyyəti daha çox məmurların fəaliyyətindən asılı olur. Son zamanlar federasiyalarda problem ondan ibarətdir ki, artıq bir çox vurulmuş, işdən çıxarılmış, həbs edilmiş məmurların rəhbərlik etdiyi idman federasiyaları olub. Bu gün də var. Məmurlar vəzifəsini itirəndən sonra idmana, federasiyaya pul xərcləmirlər. Çünki onların federasiyalara xərclədikləri vəsait dediyim kimi vəzifədən, kreslodan əldə etdikləri vəsaitlərin bir qismidir..."

İkincisi: ötən saylarımızda da qeyd elədiyimiz kimi, son Olimpiadada - "Tokio-2020" Yay Olimpiya Oyunlarında Azərbaycan milli komandasını təmsil edən 44 idmançıdan cəmi 7-si medal qazanıb, onlardan 4-ü bürünc, 3-ü isə gümüş medaldır. 44 idmançıdan 20-si legioner olub, medal qazananlardan dörd nəfəri legionerdir. Üstəlik, 1996-cı ildən olimpiya oyunlarına qatılan Azərbaycan bu olimpiadada ilk dəfə qızıl medal qazana bilməyib.

Elə isə sual yaranır: bəs müxtəlif məmurların rəhbərlik etdiyi idman federasiyalarının fəaliyyəti nədən ibarətdir? Bir halda ki, onlar nə ölkənin idmançı potensialını üzə çıxarmaqda və inkişaf etdirməkdə əhəmiyyətli rol oynaya bilirlər, nə də dövlətin idmana müstəsna qayğısına baxmayaraq nüfuzlu beynəlxalq turnirlərdə milli göstəricilərimizin hər dəfə daha da yüksəlməsinə layiqli töhfə verməyə çətinlik çəkirlər, onda həmin federasiyaların işinə hansı gərək duyula bilər? Belə çıxmırmı ki, sözügedən qurumların bir çoxu onlara rəhbərlik edən yüksək vəzifəli şəxslər üçün ya formal əhəmiyyətə malikdir, ya da daha çox "pulsilmə" vasitəsinə çevrilib?!

Onu da deyək ki, Fərid Qayıbovun gənclər və idman naziri təyin edilməsindən sonra ölkədəki idman federasiyaları ilə bağlı əhəmiyyətli qərarlar qəbul edilməkdədir. Məsələn, mart ayının sonlarında keçirilən Gənclər və İdman Nazirliyinin (GİN) Kollegiya iclasında "WKC növləri üzrə Azərbaycan Karate Federasiyası" İctimai Birliyi (İB), "Şito-Ryu Karate-Do Federasiyası" İB, "Azərbaycan Coriyo Kunq-Fu Federasiyası" İB, "Azərbaycan Döyüş Federasiyaları Assosiasiyası" İB, "Azərbaycan Dağçılıq və Ekstremal İdman Növləri Federasiyaları Assosiasiyası" İB, "Azərbaycan Skayraninq Federasiyası" İB, "Azərbaycan Boulinq İdman Federasiyası" İB, "Azərbaycan Respublikası Əməyi və Vətəni Müdafiəyə Hazıram Kompleksi və Çoxnövçülüyü üzrə Federasiyası" İB, "Azərbaycan Aykido Federasiyası" İB və "Azərbaycan Dama Federasiyası" İB, "Alpinizm Federasiyası" İB, "Azərbaycan Hava və Ekstremal İdman Növləri Federasiyası" İB, "Azərbaycan Respublikası Səmti Müəyyənetmə İdman Federasiyası" İB və "Budo Döyüş Növləri Federasiyası" İB-nin federasiya statusları dayandırılıb.

Bundan əvvəl isə "Azərbaycan Peyntbol Federasiyası" İB, "Otüstü Hokkey Federasiyası" İB və "Azərbaycan Turan Do Federasiyası" İB fəaliyyət göstərmədikləri üçün akreditasiyadan keçirilmələri mümkünsüz sayılaraq onların federasiya statusları ləğv edilib.

Görünən odur ki, GİN-in yeni rəhbərliyi sözügedən mövzuda addımlar atmaqdadır. Hesablama Palatasının anons etdiyi yoxlamalar isə idman federasiyaları ilə bağlı çoxsaylı spekulyasiyalara tam aydınlıq gətirəcək və illərdir bir sıra vəzifəli şəxslərin maliyyələşdirdikləri həmin qurumlarla bağlı real mənzərəni ortaya çıxaracaq.

Həmin mənzərənin isə belə məmurların bir çox üçün ürəkaçan olmayacağını və onlara ciddi başağrısı yaradacağını təxmin etmək o qədər də çətin deyil...

***Murad İbrahimli***

# "Nazirlər Kabineti elə bil, kişilər klubudur" - Qüdrət Həsənquliyev



***"Bizim Nazirlər Kabineti demək olar ki, kişilər klubudur. İcra başçılarının da hamısı kişilərdir".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin bu gün keçirilən iclasında deputat Qüdrət Həsənquliyev deyib.

Deputat bildirib ki, bu istiqamətdə dəyişikliklər olmalıdır.

# Əfv Komissiyasının növbəti iclası keçiriləcək

***Azərbaycan Prezidenti yanında Əfv Məsələləri Komissiyasının növbəti iclası keçiriləcək.***

Bu barədə "Unikal"a Komissiyanın üzvü Rəşad Məcid deyib. O bildirib ki, hər iclasda 100-dən artıq müraciətə baxılır.

"Sabahkı iclas sayca üçüncü olacaq. Toplantıda komissiyaya daxil olan digər müraciətlərə baxılacaq. 28 may tarixinə qədər 6-7 belə iclasın keçirilməsi nəzərdə tutulur".

Qeyd edək ki, 28 may - Respublika Günü ərəfəsində Azərbaycan Prezidenti İlham Əliyevin əfv sərəncamı imzalaması gözlənilir.

# "Azərsu" MTK-lara müraciət etdi

***"Azərsu" ASC Mənzil-Tikinti Kooperativlərinə (MTK) müraciət edib.***

"Unikal"ın məlumatına görə, müraciətdə deyilir ki, MTK-lar su anbarlarının yuyulub təmizlənməsi üçün bu sahədə ixtisaslaşmış təşkilatlara və yaxud "Azərsu"yun yerli sukanal idarələrinə müraciət edə bilər.




Anbarların yuyulması tərəflər arasında bağlanmış müqaviləyə uyğun olaraq kooperativlərin vəsaiti hesabına həyata keçirilir. Yuyulub-təmizləndikdən sonra anbarların istismarına Gigiyena və epidemiologiya mərkəzlərinin rəyi əsasında icazə verilir.

Bu ilin yanvar-aprel aylarında "Azərsu" ümumi həcmi 490 min kubmetr olan 305 mərkəzi və məhəllədaxili anbarı yuyaraq təmizləyib və dezinfeksiya edib. Bu ilin sonuna qədər Bakı və Abşeronda, həmçinin regionlarda ümumi həcmi 1 milyon kubmetrdən çox olan 870 anbarın yuyulub təmizlənməsi nəzərdə tutulur.

"Azərsu"yun balansında olmayan və MTK-lara məxsus su anbarları da ildə ən azı bir dəfə yuyulub təmizlənməlidir. Bununla bağlı MTK rəhbərləri məlumatlandırılır, əhaliyə verilən içməli suyun təhlükəsizliyi üçün anbarların yuyulub-təmizlənməsinin zəruri olduğu onların diqqətinə çatdırılır.

# Şuşada Birinci Beynəlxalq Kulinariya Festivalı başlayıb



***Şuşada Birinci Beynəlxalq Kulinariya Festivalı başlayıb. Festival Heydər Əliyev Fondu və Dövlət Turizm Agentliyinin təşkilatçılığı ilə keçirilir.***

Dünyanın müxtəlif ölkələrinin kulinarlarını bir araya gətirən tədbirin məqsədi Şuşanın qədimliyini, gözəlliyini, Azərbaycan xalqının qonaqpərvərliyini bir daha nümayiş etdirməkdir.

Beynəlxalq Kulinariya Festivalında Almaniya, Avstriya, Çin, Fransa, Gürcüstan, İndoneziya, İran, İsrail, İtaliya, Malayziya, Türkiyə və Yaponiyadan kulinarlar qonaqları ölkələrinin təamları ilə tanış edəcəklər. Qonaqlar peşəkar aşpazların ustad dərslərində də iştirak edib yemək hazırlamağın incəliklərini öyrənə biləcəklər.

Kulinariya festivalına Azərbaycanın müxtəlif iqtisadi rayonları - Abşeron-Xızı, Bakı, Dağlıq Şirvan, Gəncə-Daşkəsən, Lənkəran-Astara, Mərkəzi Aran, Naxçıvan, Qarabağ, Quba-Xaçmaz, Şəki-Zaqatala və digərləri qatılacaq. Festival günlərində 11 milli, 11 xarici və Milli Kulinariya Mərkəzinin pavilyonları qurulacaq və qonaqlar Azərbaycanın bölgələrinin, eləcə də dünya mətbəxinin nümunələrinin dadına baxa biləcəklər. Festivalda dequstasiya üçün şərablar, pendirlər və digər məhsulların təklif olunduğu zonalar da fəaliyyət göstərəcək.

Tədbirdə Belçika, Birləşmiş Ərəb Əmirlikləri, Fransa, İtaliya, İsrail, Kanada, Koreya Respublikası, Rusiya, Türkiyə və digər ölkələrdən qida sahəsi üzrə 40 beynəlxalq ekspert, qida üzrə bloqerlər də təmsil olunurlar.

Festival mayın 8-dək davam edəcək.

# Bakı, Sumqayıt və Abşeron üzrə pensiyalar ödəniləcək

***Mayın 6-da Bakı və Sumqayıt şəhərləri, eləcə də Abşeron rayonu üzrə pensiyaların ödənişinin həyata keçirilməsi nəzərdə tutulub.***

Bu barədə "Unikal"a Dövlət Sosial Müdafiə Fondundan məlumat verilib.

Qeyd olunub ki, güzəştli şərtlərlə pensiya hüququna malik şəxslərin pensiyaları bu ay da qrafik üzrə ödəniləcək.

# Naxçıvanda şagirdlərin yeni formaları belə olacaq

***Naxçıvanda dövlət məktəblərində təhsil alan uşaqların yeni geyim formaları Azərbaycandakı digər məktəbli geyim formalarından fərqlənəcək.***

"Unikal" xəbər verir ki, bununla bağlı Naxçıvan MR Nazirlər Kabineti qərar verib. Belə ki, Naxçıvanda təhsil alan uşaqların yeni geyim formaları ilə bağlı qərar ötən ay təsdiq edilib.

Həmin formaların etiketində istifadə edilən parçanın tərkibi barədə və "məktəbli forması" sözləri yazılacaq. Liseylərin geyim formasının üzərində isə məktəbin emblemi əks olunacaq.

Qızlar üçün yay forması önü düyməli uzunqol köynək, ətək və qalstuk, oğlanlar üçün yay forması önü düyməli uzunqol köynək, şalvar və qalstuk olacaq. Qızlar üçün qış forması önü düyməli uzunqol köynək, ətək, önü bağlanılan jilet, önü bağlanılan cibli pencək və qalstuk, oğlanlar üçün qış forması önü düyməli uzunqol köynək, şalvar və önü bağlanılan cibli jilet, önü bağlanılan cibli pencək və qalstuk olacaq.

# Rafiq Bayramov, Zakir Sultanov, Ramiz Tatarov... tapmacası!

## Həftənin sualı: milyonlarla manat dövlət vəsaitini talayanlar barədə verilən ağır cəzalar sonradan niyə və necə yüngülləşir?

***Yola salmaq üzrə olduğumuz həftə Mədəniyyət Nazirliyinin tabeliyindəki Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin keçmiş rəisi Zakir Sultanovun 11 illik həbs cəzası yarıbayarı azaldılaraq 5 il 6 aya endirilib.***

Xatırladaq ki, Zakir Sultanov tarixi-mədəniyyət binalarının təmiri, bərpası zamanı 5 milyon 300 min manat yeyintiyə yol verdiyi üçün qandallanmışdı.

Bildirilir ki, Apellyasiya Məhkəməsi dəymiş ziyanın ödənildiyini nəzərə alaraq ona münasibətdə CM-in 62-ci (qanunda nəzərdə tutulmuş cəzanın minimum həddindən daha aşağı cəza təyin etmə) maddəsini tətbiq edib.

Bundan əvvəl isə Ağstafa rayonunun həbsdə vəfat edən sabiq icra başçısı Nizaməddin Quliyevlə birgə həbs olunmuş müavini Ramiz Tatarovun apellyasiya şikayətinə baxılmışdı. Gəncə Apellyasiya Məhkəməsində keçirilən prosesdə elan edilən qərara əsasən, Ramiz Tatarova Cinayət Məcəlləsinin 313-cü (vəzifə saxtakarlığı) maddəsi üzrə bəraət verilmiş, bundan başqa, onun əmlaklarının bir qisminin üzərində olan həbs götürülmüşdü.

Yekun olaraq isə Tatarovun cəzası 3 ay azaldılmış, onun üzərində qəti olaraq 8 il 3 ay cəza saxlanılmışdı.

Çoxsaylı rüşvət faktlarına görə həbs edilən daha iki sabiq məmurun - Abşeron Rayon İcra Hakimiyyətinin Memarlıq və tikinti şöbəsinin sabiq müdiri (baş memar) Akif Əliyev və Mənzil Kommunal Təsərrüfat Birliyinin Xırdalan şəhəri 3 saylı Mənzil Təsərrüfat İstehsalat İstismar təmir sahəsinin keçmiş rəisi Murad Əhmədovun barəsində olan hökmdən verilən apellyasiya şikayəti ilə bağlı da bu günlərdə qərar açıqlandı: birincinin 10 il 6 müddətinə azadlıqdan məhrumetmə cəzası 5 ilə, Murad Əhmədovun cəzası isə 3 ilə endirildi.

Bu ilin martında Bakı Şəhər İcra Hakimiyyətinin sabiq aparat rəhbəri Rasim Quliyevin apellyasiya şikayəti üzrə məhkəmə prosesi də ilginc qərarın verilməsi ilə nəticələndi: Cinayət Məcəlləsinin 308.2 (ağır nəticələrə səbəb olan vəzifə səlahiyyətlərindən sui-istifadə) və 314-2.3-cü (qanunla müəyyən olunmuş qaydaları pozmaqla tikinti və ya quraşdırma işlərinin aparılmasına icazə vermə ağır nəticələrə səbəb olduqda) kimi maddələri ilə ittiham olunan bu şəxsin cəzası 2 il sınaq müddəti ilə əvəzlənmiş və o, şərti azadlığa buraxılmışdı! Yəni R.Quliyev Bakı Ağır Cinayətlər Məhkəməsi tərəfindən ona verilən cəmi 3 il həbs cəzasını belə sonadək çəkməmişdi.

Ötən ilin payızında isə mədəniyyət nazirinin sabiq müavini Rafiq Bayramovun Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmündən verdiyi apellyasiya şikayətinə baxılmış, Bakı Apellyasiya Məhkəməsində hakim Elmar Rəhimovun sədrliyi ilə keçirilən prosesdə qəbul edilən qərara əsasən, sabiq nazir müavininin həbs müddəti 4 il 6 aya endirilmişdi.

Xatırladaq ki, Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən saxlanılan R.Bayramov 1,8 milyon manat rüşvət almaqda ittiham olunurdu. O, Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə 8 il müddətinə azadlıqdan məhrum edilmişdi.

Kifayət qədər ciddi korrupsiya və rüşvət faktlarına görə həbs edilən sabiq məmurların cəzalarının sonradan ya kəskin azaldılmasına, ya da digər xeyli yüngül cəza tədbirləri ilə dəyişdirilməsinə dair nümunələrin sayını bəs deyincə artırmaq olar. Hansı ki, bu, cəmiyyətdə birmənalı qarşılanmır, haqlı narazılıq doğurur. Elə yerli media da doğru olaraq sual edir ki: "Dövlətə vurduğu maddi ziyanı ödəyən istənilən cinayətkar dərhal bağışlana bilərmi? Bu, düzgün praktikadırmı? Belə çıxmırmı ki, sabah başqaları da həvəslənib dövləti soymağa davam edəcəklər, sonra həbsə düşəcəklər, oğurladıqlarının yarısını qaytaracaqlar və sərbəst qalıb, o biri yarısını xımır-xımır yeyəcəklər?!"

Kimsəyə sirr deyil ki, Azərbaycanın ötən dövrdə enerji resursları hesabına əldə etdiyi nəhəng gəlirlərə



baxmayaraq, siyasi və iqtisadi inkişafdan geri qalmasının əsas səbəblərindən biri korrupsiyadır. Sadə dildə desək, büdcə oğurluğu və soyğunçuluqdur. Bu cür cinayətlərə qarşı son illərdə gücləndirilən mübarizə, çox sayda yüksək vəzifəli şəxsin elə kabinetindəcə qandallanması təqdirəlayiqdir.

Lakin belələrinin çox keçmədən aldıqları ağır cəzaların yüngülləşdirilməsinə nail olması suallara yol açır. Bir halda ki, milyonlarla manatı mənimsəyərək cəmi bir neçə il həbsdə qaldıqdan sonra azadlığa çıxmaq mümkündür, topladığı sərvətin bir hissəsini leqal, bir hissəsini qeyri-leqal şəkildə verib, yerdə qalanını da özündə saxlayıb bir müddət sonra Cinayət Məcəlləsinin "yüngülləşdirici" imkanlarından yararlanmaqla azadlığa çıxmaq, həmin o yerdə qalan var-dövləti ilə bir ömür xoşbəxt yaşamaq mümkündür, onda hansı məmur büdcəyə yan gözlə baxmaz, onu çapıb-talamaq barədə düşünməz?!

Bir sözlə, korrupsioner məmurların həbsi nə qədər təqdirəlayiq, gərəkli prosesdirsə, belə məmurlarla bağlı sonradan "yüngülləşdirici" qərarlar elə bir o qədər mənfi tendensiyadır. Bu tendensiya büdcə yeyintilərinə, mənimsəmələrə, rüşvətxorluğa qarşı mübarizənin effektliyini azaldır, birilərini dövlət vəsaitlərini talamağa, vətəndaşı soymağa həvəsləndirir. "Milyonlarla manatı oğurla, həbs olun, ağır cəza al, lakin çox keçmədən dövlətə vurduğun ziyanı ödə və beləcə həmin cəzan kəskin azaldılsın, cəmi bir neçə ilə azadlığa çıx!" - şübhə yoxdur ki, bəzi vəzifəli şəxslər yuxarıda bəhs etdiyimiz və bəhs etmədiyimiz apellyasiya qərarlarından sonra məhz bu cür düşüncə içindədirlər.

Həmin düşüncənin cəmiyyətdə daha dərin kök salmaması, korrupsiya ilə mübarizənin effektivliyinə xələl gəlməməsi üçün isə məlum yüngülləşdirici qərarları verərkən yaxşı-yaxşı fikirləşmək lazımdır...

***Sənan Mirzə***

## 6.3.7. işğaldan azad olunmuş ərazilərə “Böyük Qayıdış”;

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# İşğaldan azad olunan yurd yerinə qayıdış təhlükəsiz olmalıdır

## Hafiz Səfixanov: “İşğaldan azad olunmuş ərazilərimizə qayıtmaq üçün əhali mina və partlayıcı sursatlarla bağlı təlimlərə cəlb olunmalıdır”




***30 ilə yaxındır ki, ata-baba yurdlarından didərgin düşmüş insanlar işğaldan azad olunmuş ərazilərə geri qayıdacağı günü həsrətlə gözləyirlər. İsti ata yurdunun çırağını yenidən yandırmağa, doğma ocağına qovuşmağa tələsənlərin həyəcanı başadüşülən olsa da, onların təhlükəsizliyi də diqqətdən kənarda qalmamalıdır. Ona görə də Qarabağa qayıdacaq şəxslərin minalar və digər partlayıcı sursatlarla bağlı məlumatlı olması, onlarla necə davranacağını bilməsi vacib məsələdir.***

Aprel ayının 30-da Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi və Niderland Krallığının “Mine Mark” fondunun birgə əməkdaşlığı çərçivəsində Bakı, Abşeron və Sumqayıt şəhərləri də daxil olmaqla 10-dan çox ərazidə yerləşən məcburi köçkün məktəblərində fəaliyyət göstərən müəllimlər üçün “Minalardan və partlayıcı hərbi sursatlardan qorunma ilə bağlı maarifləndirici-interaktiv təlimlər” keçiriləcək. Onlayn keçiriləcək təlimlərdə 50-dən çox informatika və yaxın ixtisaslar üzrə pedaqoji fəaliyyət göstərən şəxslərin iştirakı planlaşdırılır.

Təlimin keçirilməsində əsas məqsəd müəllimlərin mina təhlükəsi sahəsində maarifləndirilməsi, xarici mütəxəssislər tərəfindən onlara aşılanan biliklərin növbəti mərhələdə məktəblilərə interaktiv yarışlar-oyunlar şəklində aşılanmasıdır.

Qeyd edək ki, işğaldan azad olunmuş ərazilərin minalardan təmizlənməsinin davam etdirildiyi bir vaxtda məktəblilərin bu sahədə maarifləndirilməsi, bu prosesi daha əyləncəli hala gətirmək üçün interaktiv oyunların metod olaraq seçilməsi layihənin effektivliyi üçün vacibdir.

Minalar Əleyhinə Azərbaycan Kampaniyası İctimai Birliyinin (İB) sədri Hafiz Səfixanov “Unikal”a açıqlamasında bildirib ki, işğaldan azad olunmuş ərazilərə “Böyük Qayıdış” zamanı minalar məsələsini diqqətdə saxlamaq vacibdir. Həmsöhbətimiz deyir ki, işğal zamanı düşmən hər tərəfi minaladığından işğaldan azad olunmuş torpaqlarımızda bu risk böyükdür. Onun sözlərinə görə, işğaldan azad olunmuş ərazilərə qayıdış üçün minadan təmizləmə işlərinə start verilsə də, təlimlərin təşkili zəruridir: “ Cəbhəyanı ərazilərdə indiyədək məktəblərdə 4-6-cı siniflərə minalarla bağlı dərslər keçirilirdi. Hətta ANAMA tərəfindən bunun üçün dərslik də hazırlanıb. Amma torpaqlarımızın işğaldan azad olunması ilə bu işlər daha böyük miqyas almalıdır. Nəinki işğaldan azad olunmuş ərazilərin sakinləri, hər kəs bu cür təlimlərə cəlb olunmalıdır. Çünki, azad olunmuş torpaqlarımıza qayıdış üçün böyük infrastruktur layihələr icra olunur. Həmin layihələrə Azərbaycanın hər yerindən insanlar cəlb olunur. Çox yaxşı olardı ki, onlar da mina və partlayıcı sursatlarla bağlı təlimlərə cəlb olunsunlar”.

H. Səfixanov deyir ki, mina ilə bağlı təlimlərə məcburi köçkün məktəblərindən başlanılması yaxşı haldır: “Çünki, məktəblərin kontingenti daha böyükdür. Uşaqların mina və partlayıcı sursatlarla davranması vacib məsələdir. Onlar əvvəlcədən bu barədə məlumatlı olmalıdırlar ki, mina gördükdə necə davranmalı olduqlarını bilsinlər”.

Birlik sədri onu da deyir ki, bu tip təlimlər innovativ təşkil olunsa daha yaxşı olar.

Qeyd edək ki, işğaldan azad olunmuş ərazilərdə vətəndaşlar arasında minaya düşərək həlak olan, ciddi xəsarət alanların sayı kifayət qədərdir.

Azərbaycan Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə icra olunan minatəmizləmə əməliyyatları zamanı aşkarlanan minaların sayını açıqlayıb. Aprelin 18-dən 23-dək Tərtər, Ağdam, Füzuli, Şuşa, Qubadlı, Cəbrayıl və Zəngilanda aparılan minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 46, tank əleyhinə 126 mina və 170 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Nəticədə 475.7 hektar ərazi mina və partlamamış hərbi sursatlardan təmizlənib.

Aprel ayı ərzində Tərtər və Zəngilan rayonları ərazisində 1 nəfər mülki, 1 nəfər hərbçi olmaqla 2 nəfər mina partlayışından xəsarət alıb.

Qeyd edək ki, bu ilin aprel ayının 9-da Tərtərdə mina partlayışı zamanı Goranboy rayon sakini, 1976-cı il təvəllüdlü Həsənov Elnur Tofiq oğlu Tərtər rayonu Həsənqaya kəndi ərazisində qoyun otararkən minaya düşüb. Yaralının hər iki ayağının aşağı hissəsi travmatik amputasiya olunub.

Ombudsman Səbinə Əliyeva azad edilmiş ərazilərdə mövcud olan mina təhlükəsi ilə bağlı açıqlama yayıb. Bu barədə Ombudsman Aparatının açıqlamasında deyilir ki, Azərbaycanın azad edilmiş ərazilərində mövcud olan mina problemi məcburi köçkünlərin doğma yurdlarına qayıdışını ləngitməklə yanaşı, çoxsaylı insanların həyatına son qoymuş və ya ömürlük əlillik dərəcəsi almalarına səbəb olubdur. İkinci Qarabağ müharibəsi bitdikdən sonra mina partlayışları nəticəsində həlak olmuş və xəsarət almış azərbaycanlıların sayı 200-ə yaxındır.

Ötən gün Kəlbəcər rayonunun Günəşli kənd sakinlərinin öz evlərini ziyarət etməsi məqsədilə təşkil edilmiş səfərdə növbəti belə faciənin qarşısı alınıb.

Belə ki, Azərbaycan Ordusunun hərbi qulluqçusunun sakinlərdən birini müşayiət edərkən ehtiyatlı davranması nəticəsində evlərin sıx yerləşdiyi həmin kənddə tank əleyhinə mina aşkarlanmış, bununla kənd sakinləri, dövlət qurumları və KİV nümayəndələrinin daxil olduğu 20 nəfərin həyatı son anda xilas ediliblər.

Kütləvi insan tələfatına səbəb ola biləcək həmin minaların 2020-ci ildə Kəlbəcər rayonunun boşaldılması üçün ermənilərə verilmiş müddət ərzində basdırıldığı ehtimal edilir. Təəssüf ki, Azərbaycanın humanist yanaşmasına cavab olaraq Ermənistanın cinayətkar əməlləri günahsız insanların həyatlarına təhlükə yaratmaqdadır. Ötən ilin iyun ayında da həmin rayonda tank əleyhinə minanın partlaması nəticəsində iki jurnalist və bir məmur həlak olmuşdu.

Ermənistan tərəfindən mülki əhalinin yaşayış yerlərinin yaxınlığında minalar basdırması və Azərbaycan tərəfinin çoxsaylı çağırışlarına baxmayaraq dəqiq mina xəritələrinin təqdim edilməməsi beynəlxalq humanitar hüquqa zidd olmaqla, insanların bir çox fundamental hüquqlarının pozulmasına gətirib çıxarır. Bununla bağlı tərəfimizdən dəfələrlə beynəlxalq təşkilatlara müraciətlər edilsə də, nəticə əldə olunmayıb.

***Gülayə Mecid***

Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.



# Bölmələrimiz şərti düşmən hədəflərini belə məhv etdi

***Cari ilin hazırlıq planına uyğun olaraq Quru Qoşunlarının raket və artilleriya bölmələrində döyüş atışlı taktiki təlimlər keçirilib.***

Bu barədə ”Unikal”a Müdafiə Nazirliyindən məlumat verilib.

Cəmləşmə rayonlarına çıxarılan raket və artilleriya bölmələri təyin olunmuş yerlərdə atəş mövqelərini tutublar.

Real döyüş şəraitinə uyğun keçirilən təlimdə şərti düşmən hədəfləri bölmələrimizin dəqiq atəşi ilə məhv edilib.

Vətən müharibəsində əldə edilən təcrübə nəzərə alınmaqla keçirilən təlimin əsas məqsədi raket və artilleriya bölmə komandirlərinin müasir döyüşü idarətmə qabiliyyətinin təkmilləşdirilməsi, peşəkarlığın yüksəldilməsi, eləcə də şəxsi heyətin döyüş vərdişlərinin artırılmasıdır.

# “Qırmızı Ürəklər” Fondu yeni ekoloji layihəyə başlayıb

***“Qırmızı Ürəklər” (Red Hearts) Fondu, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Bravo marketlər şəbəkəsi ilə birgə “Batareyaları təhvil ver, təbiəti qoru” adlı yeni layihəyə start verib.***

”Unikal” xəbər verir ki, layihə çərçivəsində istifadəyə yararsız elektrik batareyalarının toplanması həyata keçirilir.

İstifadə edilmiş batareyalar üçün ilkin olaraq Gənclik Mall, Əhmədli qəsəbəsi, 20 yanvar m/s, Koroğlu m/s, 28 Mall, Dəniz Mall və Zefir Mall-da olan Bravo marketlərində xüsusi qutular yerləşdirilib. Layihə işlənmiş batareyaları digər tullantılardan ayırmaq onların ətraf mühitə və insan sağlamlığına mənfi təsirlərini minimuma endirmək məqsədi daşıyır. Gələcəkdə analoji qutuların digər şəhər və rayonlarda da yerləşdirilməsi planlaşdırılır.

Vətəndaşlar tərəfindən məişətdə istifadə olunan batareyalar toplanaraq ”Təhlükəli Tullantılar” MMC-yə təhvil veriləcək. Ətraf mühitin mühafizəsi, ekoloji tarazlığın bərpası, təkrar emalın təşviqi, tullantıların azaldılması, işlənmiş batareya tullantılarının zərərli təsirlərinin qarşısının alınması və səmərəli idarə olunması cəhətdən olduqca vacib olan və maarifləndirici məqsəd daşıyan bu layihə ətraf mühitin qorunmasına kömək edəcək.

Qeyd edək ki, “Qırmızı Ürəklər” Fondu 2019-cu ildə Kapital Bank-ın könüllü əməkdaşlarının təşəbbüsü ilə yaradılıb. Hazırda Fond kimi fəaliyyətini davam edən təşkilat, əsasən uşaq evlərinə, sığınacaqlara və digər ehtiyacı olanlara yardımlar edir. https://redhearts.az saytına daxil olmaqla fondun fəaliyyəti, gördüyü xeyirxah işlər, gələcək planları və digər maraqlı məlumatları əldə etmək olar.

## Məktəbəhazırlıq qrupları ləğv ediləcək? - RƏSMİ



***Məktəbəhazırlıq qruplarının bağlanıb-bağlanmayacağı məsələsinə aydınlıq gətirilib.***

"Unikal" xəbər verir ki, bu barədə Təhsil Nazirliyinin Ümumi və məktəbəqədər təhsilin təşkili şöbəsinin müdir müavini Orxan Abbasov bildirib.

O qeyd edib ki, bağçaların Təhsil Nazirliyinin tabeliyinə verilməsindən sonra məktəblərdə məktəbəhazırlıq qruplarının ləğv ediləcəyi ilə bağlı fikirlər yayılıb: "Ancaq belə şey yoxdur, məktəblərdə məktəbəhazırlıq qrupları fəaliyyətini davam etdirəcək. Məktəbəhazırlıq qruplarına qəbul hər il adətən iyul-avqust aylarında olur. Bu il də elan olunacaq. Bu qrupların bağlanması ilə bağlı hələlik heç bir məlumat yoxdur".

Orxan Abbasov eyni zamanda övladını birinci sinfə qoymaq istəyən valideynlərin texniki problemlə üzləşdiyi halda hara müraciət etməli olduqlarına da aydınlıq gətirib. O deyib ki, hər bir rayonda alternativ qəbul mərkəzləri var:

"Belə hallarla bağlı yerli təhsil qurumuna müraciət etmək tövsiyə olunur. Həmçinin "ASAN xidmət" mərkəzləri ilə də iş aparılır. Valideynlər texniki problemlə üzləşəndə ora da müraciət edə bilərlər. Bundan başqa Nazirliyin "whatsapp" nömrəsinə də yaza bilərlər".

## Kamran Əliyev İtaliyaya getdi

***İtaliyanın Baş prokuroru Ciovanni Salvinin dəvəti ilə Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti İtaliyanın Palermo şəhərinə işgüzar səfər edib.***

Baş Prokurorluqdan "Unikal"a verilən məlumata görə, səfər zamanı Kamran Əliyev Avropa Prokurorlarının Məşvərətçi Şurasının, İtalyanın Ədliyyə və Xarici İşlər Nazirliklərinin Avropa Şurası ilə birgə təşkil olunan Avropa Prokurorları Konfransında iştirak edəcək.

Konfrans çərçivəsində bir sıra xarici dövlətlərin baş prokurorları və nüfuzlu beynəlxalq təşkilatların nümayəndələri ilə ikitərəfli və çoxtərəfli görüşlərin keçirilməsi nəzərdə tutulur.

## Bakıda dəhşət: Qadın evdə yanaraq öldü

***Bakıda qadın evdə yanaraq ölüb. Bu barədə "Unikal"a Fövqəladə Hallar Nazirliyinin (FHN) Mətbuat Xidmətindən məlumat verilib.***

Bildirilib ki, paytaxtın Səbail rayonunda taxta konstruksiyalardan ibarət ikimərtəbəli yaşayış binasının birinci mərtəbəsində ümumi sahəsi 38 m² olan mənzilin yanar konstruksiyaları və qonşu mənzillərdə arakəsmə divar ümumilikdə 20 m² sahədə yanıb.

Yanğın yerinin kəşfiyyatı zamanı 1969-cu il təvəllüdlü Xalıkova Alla Viktorovnanın yanmış meyiti yanğınsöndürənlər tərəfindən aşkar edilərək aidiyyəti üzrə təhvil verilib. Mənzillərin qalan hissəsi yanğından mühafizə olunub. Yanğın yanğından mühafizə bölmələri tərəfindən söndürülüb.

Hadisə ilə əlaqədar müvafiq qurumlar tərəfindən təhqiqat aparılır.

# 20 mindən çox şagird imtahan verəcək

***Mayın 8-də cari ilin 9-cu və 11-ci sinif şagirdləri, həmçinin əvvəlki illərin məzunları üçün Azərbaycan dili (dövlət dili kimi) fənni üzrə imtahan keçiriləcək.***



Bu barədə "Unikal"a Dövlət İmtahan Mərkəzindən məlumat verilib.

Bildirilib ki, imtahanda ümumilikdə 20555 şagirdin (abituriyentin) iştirakı nəzərdə tutulur.

Dövlət İmtahan Mərkəzi tərəfindən 2022-ci il mayın 8-də tədrisi Azərbaycan dilindən fərqli dillərdə aparılan ümumi təhsil müəssisələrinin 9-cu və 11-ci sinif şagirdləri üçün buraxılış imtahanı çərçivəsində Azərbaycan dili (dövlət dili kimi) imtahanı keçiriləcək. Mayın 8-də ali və orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanını Azərbaycan dilindən fərqli dildə verən əvvəlki illərin məzunları üçün də Azərbaycan dili (dövlət dili kimi) imtahanı keçiriləcək.

İmtahan ümumilikdə 21 şəhər və rayonda, 95 binada aparılacaq.

İmtahan bütün binalarda eyni vaxtda - saat 11:00-da başlanır. İmtahanın başlanmasına 15 dəqiqə qalmış saat 10:45-də buraxılış rejimi başa çatır. Bundan sonra gələn iştirakçılar imtahan binasına buraxılmır. İmtahan binasına buraxılış vərəqəsində qeyd olunan vaxtda gəlmək lazımdır.

Cari ilin 9-cu və 11-ci sinif şagirdləri buradan, əvvəlki illərin məzunları isə buradan "İmtahana buraxılış vərəqəsi"ni çap edə bilərlər.

İştirakçılar imtahana aşağıdakı sənədləri gətirməlidirlər:

- imtahana buraxılış vərəqəsini;
- şəxsiyyəti təsdiq edən sənədin əslini.

a) Azərbaycan Respublikasının vətəndaşları (16 yaşı tamam olmayan şagirdlər də daxil olmaqla) şəxsiyyət vəsiqəsini;

b) əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Dövlət Miqrasiya Xidməti tərəfindən verilmiş icazə vəsiqələrini, qaçqın statusu almış xarici vətəndaşlar və onların ailə üzvləri isə qaçqın vəsiqələrini;

- Şəxsiyyət vəsiqəsində şəkli olmayan şəxslər digər sənədlərlə yanaşı, təhsil müəssisəsi tərəfindən verilmiş və fotoşəkilləri yapışdırılmış arayışı (arayışa şagirdin 3x4sm ölçülü şəkli yapışdırılır və şəkil möhürlə təsdiqlənir).

İmtahanda iştirakçılara 30 tapşırıq təqdim olunur:

dinləyib-anlamaya dair 1 mətn və mətnə aid 4 tapşırıq (3 qapalı və yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli 1 tapşırıq);

dil qaydaları üzrə bilik və bacarıqların yoxlanması üçün 10 qapalı tipli tapşırıq;

oxuyub anlamaya dair 2 mətn və hər mətnə aid 8 tapşırıq (7 qapalı və yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli 1 tapşırıq).

İmtahanın müddəti 1 saat 30 dəqiqədir.

Cari il imtahan iştirakçılarının toplaya biləcəkləri maksimum bal 100 baldır. Bu imtahanın nəticəsi şagirdin yekun attestasiya sənədinə yazılacaq.

Ali və ya orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq üçün isə abituriyentlərin balı 50 və daha yuxarı olduqda "məqbul" qiymət almış hesab olunurlar.

Ali və orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanını Azərbaycan dilindən fərqli dildə verən əvvəlki illərin məzunları imtahanda 30 bal toplaya bilərlər. Abituriyentin "məqbul" alması üçün onun topladığı bal 15-dən az olmamalıdır.

İmtahanda ümumilikdə 20555 (Bakıda 13677, Sumqayıtda 755, Abşeronda 723, Naxçıvanda 46, Gəncədə 1383, Şəmkirdə 96, Tovuzda 189, Mingəçevirdə 186, Yevlaxda 121, Şəkidə 132, Zaqatalada 302, Balakəndə 242, Qəbələdə 204, Qaxda 169, Bərdədə 241, Göyçayda 227, Şirvanda 339, Lənkəranda 354, Qubada 224, Qusarda 473, Xaçmazda 482) şagirdin (abituriyentin) iştirakı nəzərdə tutulub.

İmtahanın idarə olunması üçün 95 ümumi imtahan rəhbəri, 248 imtahan rəhbəri, 1913 nəzarətçi-müəllim ayrılıb, 190 buraxılış rejimi əməkdaşı (mühafizə), 95 bina nümayəndəsi ayrılıb.

# "Zəngəzur dəhlizi əlavə imkanlar yaradacaq" - Əhliman Əmiraslanov

***"Prezident İlham Əliyevin mayın 4-də Prezidentin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan rayonunda xüsusi nümayəndənin təyin olunması ilə bağlı çıxışında Zəngilan rayonunda böyük infrastruktur layihələrin icra edilməsi ilə bağlı geniş məlumatlar verdi. Onların arasında Zəngəzur dəhlizinin tərkib hissəsi olan nəqliyyat infrastrukturudur. Cənab president bildirdi ki, "bu il Zəngilan Beynəlxalq Hava Limanı istismara veriləcəkdir. Dörd və altı zolaqdan ibarət olan avtomobil yolu sürətlə inşa olunur".***



Bu fikirləri "Unikal"a Milli Məcisin Səhiyyə komitəsinin sədri akademik Əhliman Əmiraslanov səsləndirib. O bildirib ki, Zəngilandan Qubadlıya və Qubadlıdan Laçına bir çox zolaqdan ibarət yol çəkilir. Bu yol Şərqi Zəngəzur iqtisadi rayonundakı rayonlar arasında birləşməni təmin edəcəkdir: "Horadizdən Ağbəndə gedən dəmir yolunun inşası sürətlə aparılır. Bu dəmir yolu həm vətəndaşlar üçün, həm də beynəlxalq yükgöndərənlər üçün çox əlverişli bir infrastruktur olacaqdır." Bu baxımdan Zəngəzur dəhlizi həm bizim üçün və həm də qonşu dövlətlər üçün əlavə imkanlar yaradacaq. Azərbaycan 44 günlük Vətən müharibəsindəki Zəfərindən sonra regionda yeni reallıqlar yaradıb. Dünyanın inkişaf etmiş güclü dövlətləri və beynəlxalq təşkilatlar, siyasi mərkəzlər bu reallığı qəbul edərək ölkəmizlə əməkdaşlıq üçün təşəbbüslər irəli sürürlər. Azərbaycan beynəlxalq hüquq çərçivəsində öz haqqını bərpa edərək, bütün dünyaya güclü dövlət olduğunu göstərdi. Artıq Cənubi Qafqaz regionu dedikdə ağıla ilk gələn Azərbaycandır. Azərbaycan, sözün əsl mənasında, regionun güclü dövləti, başqa sözlə desək, yeni güc mərkəzidir. Prezident İlham Əliyevin həyata keçirdiyi düşünülmüş və uzaqgörən, eyni zamanda, qətiyyətli siyasət nəticəsində Azərbaycan dövləti bu uğurlara nail olmağı bacarıb".

# ASC rayonlarda layihələr icra edir



***Lənkəranda suvarma mövsümünə hazırlıq işləri davam edir. 58 milyon kubmetr suyun təyinatı üzrə istifadəsi planlaşdırılır. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin mətbuat katibi Dilqəm Şərifov bildirib ki, yazın gəlişi Lənkəranda suvarma mövsümünə hazırlıq işlərini sürətləndirib. Təsərrüfatların, həyətyanı sahələrin su təminatını yaxşılaşdırmaq məqsədilə arx və kanallarda təmizləmə, suvarma şəbəkələrində təmir işləri aparılır.***

Lənkəranda 9533, Astarada 2000, Lerikdə isə 406 hektar əkin sahələrinin suvarılması Yuxarı Xanbulançay Hidroqovşağı İstismar İdarəsi tərəfindən həyata keçirilir. Əsasən suvarma mənbəyi kimi Xanbulançay su anbarı, Lənkərançay, sututarlar və subartezian quyulardan istifadə olunur. Suvarma suyuna olan tələbatın böyük hissəsini ümumi tutumu 52 milyon kubmetr olan Xanbulançay su anbarı ödəyir. Su anbarında hazırda 47 milyon kubmetr su ehtiyatı var və suvarma mövsümünə qədər anbarın tam doldurulması nəzərdə tutulub. Yuxarı Xanbulançay Hidroqovşağı İstismarı İdarəsinin 1976-cı ildən bu günə kimi əsas fəaliyyəti kənd təsərrüfatı torpaqlarını suvarma suyu ilə təmin etməkdir. İdarənin balansında 1685 km uzunluğunda suvarma şəbəkəsi mövcuddur. Hazırda suvarma mövsümünə hazırlıq işləri tam sürətlə davam edir. İstər əl əməyi ilə olsun, istər texnika vasitəsilə lildən təmizlənmə işləri həyata keçirilir, həmçinin kanalların üzərində olan hidrotexniki qurğular nəzarətdə saxlanılır.

Suvarma ilə yanaşı Lənkəran və Astaranın müəyyən qədər içməli su təminatı da Xanbulançay su anbarı vasitəsilə həyata keçirilir. Hərəkət istiqamətinə uyğun olaraq su sağ və sol sahil magistral kanalları ilə verilir. Bu magistral kanalların üzərində yerləşən su nasos stansiyaları daim diqqətdə saxlanılır və suvarmaya hazır vəziyyətə gətirilir. O cümlədən əkin sahələrinə və yaşayış məntəqələrinə bəzi hallarda təhlükə yaradan çayların qarşısını almaq üçün həmin ərazilərdə texnikalar vasitəsi ilə məcra təmizləmə və sahilbərkitmə işləri görülür.

Lənkəranda may ayında başlayacaq suvarma mövsümü sentyabrın əvvəllərində bitəcək. Rayonun əsas əkin sahələri bostan, tərəvəz, sitrus və giləmeyvə bağları, çəltik, taxıl və çay sahələridir. Son dövrlərdə çiyələk sahələrinin artması müşahidə olunur. Ən çox su tələb edən bitki çəltik olduğundan əsasən çəltikçiliklə məşğul olan təsərrüfatçılarla mütəmadi əlaqə saxlanılır, su ehtiyatlarından qənaətlə istifadə etmələrinə ciddi nəzarət olunur. Yuxarı Xanbulançay Hidroqovşağı İstismar İdarəsi tərəfindən bu il əkin sahələrinin suvarılması üçün hazırlıq işləri artıq yekunlaşmaq üzrədir.

Saatlıda yeni nov kanallar çəkilib. Dilqəm Şərifov bildirib ki, Saatlıda suvarma mövsümünə ciddi hazırlıq işləri görülüb. Məqsəd suvarma mövsümündə əkin sahələrinin su təminatını vaxtında və itkisiz yerinə yetirməkdir. Saatlı Suvarma Sistemləri idarəsi tərəfindən cari ildə əkin sahələrinin su təminatını yaxşılaşdırmaq üçün bir çox layihələr həyata keçirilib ki, onlardan biri də rayonun Yeni Novruzlu və Bəylik kəndində olan əkin sahələrini əhatə edib. Bu məqsədlə uzunluğu 1km-dən artıq olan yeni nov kanal çəkilib. Bununla da müvəqqəti istifadə olunan nov kanalda su itkisinin qarşısı alınacaq və 500 hektardan çox əkin sahəsinin su təminatı yaxşılaşdırılacaq. Eyni zamanda, Aşağı Muğan kanalının 1-ci qolunun, Baş Mil Muğan kollektoru ilə kəsişməsində olan akvedukun su keçirmə qabiliyyəti artırılıb. Bunun üçün diametri 1220 mm olan 3-cü boru xəttinin keçirilməsi başa çatdırılıb. Bununla da 11 kəndin 5 min hektara qədər əkin sahəsinin su təminatı yaxşılaşdırılıb.

Saatlı Suvarma Sistemləri İdarəsinin balansında olan əkin sahələri yeni əkin dövriyyəsinə daxil edilmiş torpaqlar hesabına bu il artıb. Mövcud əkin sahələri ümumi uzunluğu 1400 km-dən artıq olan suvarma kanalları, 2 min ədəddən artıq sayı olan hidrotexniki qurğu, 61 ədəd nasos aqreqatı və köməkçi vasitələrlə suvarma suyu ilə təmin edilir. Saatlı rayonu ərazisinin 17 min 856 hektara qədər sahəsi mexaniki üsulla, nasos stansiyaları vasitəsi ilə suvarılır. Bu iş isə 61 ədəd nasos aqreqatı olan 46 ədəd nasos stansiyaları vasitəsi ilə yerinə yetirilir. Görülən işlər nəticəsində fermerlərin əkin apardıqları sahələrə suvarma suyunun çatdırılması asanlaşıb. Bu isə məhsuldarlığın artmasına səbəb olacaq.

Qeyd edək ki, Saatlıda suvarma mövsümü ərəfəsində 111 hidrotexniki qurğu, 7 ədəd su nasos stansiyası, 6 ədəd istehsalat binası, 25 ədəd hidropost, 16 km nov kanal və 1.4 km beton kanal cari təmir edilib. Kanallarda faşın hörgüsü vasitəsi ilə 700 kub metr həcmində yamacbərkitmə işləri həyata keçirilib. Bundan əlavə Saatlı rayonu ərazisində uzunluğu 374 km olan kollektor-drenaj şəbəkəsində, 1376 kub metr mexanizmlə lildən təmizləmə işi görülüb. Araz çayında nasos stansiyaların yanında 440 min kub metr məcra təmizləmə işləri aparılıb. Eyni zamanda Aşağı Muğan, II və I Qol, Sol Sahil və Sabir kanalları lildən təmizlənib.

***Hüseyn İsgəndərov***



# Qəlblərdə yeri olanlar

***İkinci Qarabağ müharibəsində yağı düşmənə əsir olan müqəddəs Vətən torpaqlarının azadlığı uğrunda canından keçən Famil Habil oğlu Əlizadə yaşasaydı ömrünün 23-cü ilini yola salardı. Masallı rayonunun Ərkivan qəsəbəsində boya-başa çatan bu Vətən sevdalısı göstərdiyi qəhrəmanlıqla əbədi bir həyat qazandı. Azərbaycan var olunca, Familin adı da onunla birgə çəkilər.***

Həyatını Vətəninə, xalqına sərf edən Masallının igid oğlu milyonların ürəyində yaşamaqla, həm də dövlət tərəfindən "Vətən uğrunda", eləcə digər medallara layiq görülübdür. İndi Masalıda hamı Familin adını iftixarla çəkir, onu özlərinə qürur yeri bilirlər. Doğum gününü qeyd edən masallılar dedilər ki, Familin keçdiyi qısa yol bizim üçün Vətənə, torpağa sevgi, məhəbbət rəmzi kimi örnəkdir. Yurdumuzun igid oğlu cismən aramızda olmasa da, mənən həmişə, hər yerdə bizimlə birdir. Qərinələr keçəcək onun qəhrəmanlığı gələcək nəsillərə nümunə olacaq.

Çıxışlarda o da bildirildi ki, 27 sentyabr 2020-ci il tarixində başlayan və 44 gün davam edən II Qarabağ müharibəsi zamanı Famil müharibənin ilk günündən canından artıq sevdiyi Vətənin müqəddəsliyinə tapınaraq könüllü döyüşlərə qatılır. Füzuli istiqamətində gedən ağır müharibədə qəhrəmancasına iştirak edir. O, az sayda şəxsi heyətlə birgə Füzulinin Aşağı Əbdürrəhmanlı kəndində düşmən postunun və anbarının alınmasında xüsusilə fərqlənir. Bir aya yaxın düşmənlə vuruşan, hər döyüş günündə yağıya sinə gərən Famil göstərdiyi şücaətlə adını qızıl hərflərlə tarixə yazır. Oktyabr ayının 21-də Füzuli istiqamətində gedən ağır döyüşlərdə müqəddəs şəhidlik zirvəsinə ucalır.

Tədbir iştirakçılar- Yeni Azərbaycan Partiyası Masallı rayon təşkilatının sədri Seyfəddin Əliyev, Masallı rayon İcra hakimiyyətinin Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin müdiri Qəşəm Hadıyev , YAP Masallı rayon təşkilatının əməkdaşları və fəalları şəhidin ailə üzvləri, rayon ictimaiyyətinin nümayəndələri şəhid Familin xatirəsini ehtiramla anıb, məzarı üzərinə gül dəstələri qoydular .

***Zəfər Orucoğlu, AJB üzvü***

# İntensiv yağış yağacaq, güclü külək əsəcək

***Mayın 6-na gözlənilən hava şəraiti açıqlanıb. Milli Hidrometeorologiya Xidmətindən "Unikal"a verilən məlumata görə,***

Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecə və səhər bəzi yerlərdə qısamüddətli yağış yağacağı ehtimalı var. Güclü şimal-qərb küləyi əsəcək.

Havanın temperaturu gecə 12-15º isti, gündüz 16-20º isti olacaq. Bakıda gecə 12-14º isti, gündüz 17-19º isti olacaq. Atmosfer təzyiqi 755 mm civə sütunundan 760 mm civə sütununa yüksələcək. Nisbi rütubət 65-75 % olacaq.

Azərbaycanın rayonlarında bəzi yerlərdə şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclü olacaq.

Havanın temperaturu gecə 8-13º isti, gündüz 22-27º isti, dağlarda gecə 2-6º isti, gündüz 7-12º isti olacaq.

# NATO XİN başçılarının görüşünün gündəliyi açıqlandı

***NATO xarici işlər nazirlərinin qeyri-rəsmi görüşünün gündəliyi açıqlanıb.***

Toplantıda regional və qlobal məsələlər müzakirə olunacaq.

NATO baş katibi Yens Stoltenberq və Almaniya xarici Annalena Beerbok toplantını giriş sözü ilə açacaqlar. Həmçinin vurğulanıb ki, müzakirələr canlı yayımlanacaq. Toplantıdan sonra Baş katibin və nazirlərin mətbuat konfransı keçirəcəkləri gözlənilir.

Qeyd edək ki, toplantı mayın 14-15-də Almaniyanın paytaxtı Berlində keçiriləcək.

# "Nüvə silahından istifadə qəbuledilməzdir" - Belarus prezidenti

***Belarus prezidenti Aleksandr Lukaşenko nüvə müharibəsi ehtimalından danışıb. O, "Associated Press" agentliyinə müsahibəsində nüvə silahından istifadənin qəbuledilməz olduğunu deyib.***

Lukaşenko: "Putin NATO ilə münaqişəyə can atmır"Jurnalist Ukraynada hərbi əməliyyatların uzadılması halında nüvə silahından istifadənin hipotetik mümkünlüyü ilə bağlı Aleksandr Lukaşenkonun fikrini soruşub.

Cavabında Belarus lideri bu cür kütləvi qırğın silahından istifadəni həm də ona görə məqbul bilməyib ki, atılacaq ərazi onlarla sərhəddə yerləşir.

- Tam yaxınlığımızda yerləşmir. Amma ABŞ kimi okeanın o tayında da deyil. Bu, qətiyyən qəbuledilməzdir... Yer kürəsi orbitdən çıxar və biz heç bilmərik hara uçub gedərik, - Lukaşenko deyib.

# Türkiyədə 19 yaşlı qız küçədə başından güllələndi

***İstanbulun Esen adlanan ərazisində 19 yaşlı qız küçədə başından güllələnib.***

"Unikal" xəbər verir ki, hadisə anı məhəllə sakinləri tərəfindən cib telefonu ilə lentə alınıb. Belə ki, Asiye rəfiqəsi ilə birlikdə olarkən sevgilisi küçədə onların qarşısını kəsib. Bu zaman qızın rəfiqəsi cütlüyü tək qoyub. Bir müddət söhbət etdikdən sonra oğlan Asiyenin başına silahla atəş açıb. Qız hadisə yerindəcə keçinib. Oğlan isə ərazidən uzaqlaşıb.

Cinayət yerinə polis qrupları sövq edilib. Çox keçməyib ki, qətli törədən 25 yaşlı Ümit K. adlı şəxs saxlanılıb. Onun hansı səbəbdən cinayəti törətdiyi məlum deyil.

Faktla bağlı araşdırmalar aparılır.

# "Ukraynanın əks hücumu gözlənilmir"

***"İyunun ortalarına qədər Ukraynanın əks hücumu gözlənilmir".***

"Unikal" xəbər verir ki, bu sözləri Prezident Vladimir Zelenskinin müşaviri deyib.

Həmçinin "Ukrayna müttəfiqlərindən daha çox silah alacağına ümid etdiyi üçün iyunun ortalarından əvvəl Rusiya ilə müharibədə əks-hücum əməliyyatına başlaya bilməz",- deyə müşavir bildirib.

*Aynurə Xudaverdiyeva*

# Finlandiya Rusiya ilə müharibəyə hazırlaşır?

***İsveç və Finlandiyanın NATO-ya daxil olmaq planları Rusiya administrasiyasını qəzəbləndirib. Bundan sonra Finlandiya Rusiyanın mümkün işğalına hazırlaşmağa başlayıb.***

"Unikal" xəbər verir ki, Finlandiya mümkün müharibə vəziyyətində mülki əhalinin qaçması üçün sığınacaqların hazır olduğunu açıqlayıb.

İngiltərənin ən çox oxunan qəzetlərindən biri olan "Daily Telegraph" sığınacaqlara daxil olaraq "lüks" bunkerləri araşdırıb.

Paytaxt Helsinkidə bir sığınacağa girən İngilis mediası orada uşaq oyun meydançaları, hovuzlar və istirahət yerlərinin olduğunu bildirib.

Sığınacaqların nüvə, bioloji və kimyəvi hücumlara davamlı olduğu, təkcə Helsinkidə 900 mindən çox insan tutumuna malik 5500 sığınacaq olduğu qeyd olunub.

Finlandiyada 54 min fərqli nöqtədə 4,4 milyon tutumlu sığınacaqların olduğu bildirilir. Həmçinin qeyd olunub ki, əvvəllər Rusiya ilə döyüşən Finlandiyada bütün körpülər, tunellər və keçidlər müharibə vəziyyətində məhv ola biləcək formada tikilib.

# "Siz rusları və digər xalqları iyrənc hesab edən insanlarsınız" - "Putinin aşpazı"

***Rusiya prezidenti Vladimir Putinə yaxın olan, ictimai iaşə sahəsində aldığı dövlət tenderlərinə görə "Putinin aşpazı" kimi tanınan və onun sifarişi ilə "Vaqner Qrupu"nu idarə etdiyi iddia edilən Yevgeni Priqozin Britaniyanın "The Guardian" qəzetinə açıqlama verib.***



"Unikal" xəbər verir ki, Qərbi "məhv olmuş pozğunlar" kimi xarakterizə edən Priqozin Rusiyanın Ukraynada mütləq qalib gələcəyini bildirib.

"Vaqner Qrup"u ilə heç bir əlaqəsi olmadığını iddia edən rusiyalı iş adamı, "Siz rusları, malililəri, mərkəzi afrikalıları, kubalıları, nikaraqualıları və digər xalqları iyrənc hesab edən Qərb sivilizasiyasısınız. Siz nəsli kəsilmiş pozğunların acınacaqlı bir qrupusunuz. Biz çoxuq, milyardlarla. Qələbə bizim olacaq" , - deyib.

ABŞ və Avropa ölkələrinin Mali və Afrikada insanları əsarət altına almağa çalışdığını bildirən Priqozin Qərbin bölgədəki təbii sərvətləri talamaq üçün terror təşkilatları vasitəsilə qorxu mühiti yaratdığını iddia edib.

Rusiyanın xarici işlər naziri Sergey Lavrov keçən həftə "Vaqner Qrupu"nun Mali və Liviyada fəaliyyət göstərdiyini təsdiqləsə də, qrupun Rusiya hökumətindən birbaşa təlimat aldığını təkzib edib. Suriya və Ukraynada insan haqlarını pozmaqda ittiham olunan "Vaqner Qrupu"nun yüzlərlə muzdlusunun müxtəlif ölkələrdə döyüşdüyü bildirilir.

*Gülayə Mecid*

# Türkiyəli diplomatı öldürən erməni terrorçu İrəvanda saxlanıldı

***Ermənistanın paytaxtı İrəvanda davam edən aksiyalarda ASALA terror təşkilatının üzvü Ambik Sasunyan saxlanılıb.***

"Unikal" xəbər verir ki, bu barədə hüquq müdafiəçisi Ruben Məlikyan sosial şəbəkədə məlumat yayıb.

Qeyd edək ki, A.Sasunyan 80-ci illərdə Türkiyənin Los-Ancelesdəki baş konsulu Kamal Arıkanı qətlə yetirməkdə təqsirli bilinərək ömürlük həbs cəzasına məhkum edilib. O, 2021-ci ildə həbsdən azad edilib və Ermənistana köçüb.






# Rusiya cavab addımı olaraq 7 danimarkalı diplomatı ölkədən çıxarır

***Rusiya cavab addımı olaraq 7 danimarkalı diplomatı ölkədən çıxarır.***

"Unikal" "Al jazeera"-yə istinadən xəbər verir ki, Rusiya Xarici İşlər Nazirliyi, Kopenhagenin keçən ay 15 rus diplomatını ölkədən çıxarmasına cavab olaraq yeddi danimarkalı diplomatı "persona non-qrata" elan etdiyini, Moskvanın da Kopenhagenin Ukraynaya hərbi yardımına etiraz etdiyini bildirib.

Nazirlik Danimarkanın anti-Rusiya siyasətinin ikitərəfli münasibətlərə ciddi ziyan vurduğunu və Rusiyanın buna cavab olaraq əlavə addımlar atmaq hüququnu özündə saxladığını bildirib.

*Aynurə Xudaverdiyeva*

# Bill Qeyts İlon Maska xəbərdarlıq etdi

***Amerikalı milyarder Bill Qeyts Tesla və SpaceX-in baş direktoru İlon Maskın sosial media nəhəngi "Twitter"i alması ilə bağlı açıqlamalar verib.***

"Unikal" xəbər verir ki, o, bu barədə "Wall Street Journal"a danışıb.

Qeyts, Maskın Tesla və SpaceX təşəbbüsləri ilə uğurlu işlər gördüyünü və "ağılları uçuran" bir tarixə malik olduğunu bildirsə də, "Twitter" üçün işlərin o qədər də asan olmayacağını söyləyib.

"Əslində vəziyyət daha da pisləşə bilər. Mən İlonun bu dəfə uğurlu olacağına şübhə edirəm".

"Twitter"də dezinformasiya probleminə toxunan Qeyts milyarder dostu Maskın bunun qarşısını ala bilməyəcəyi barəsində xəbərdarlıq edib.

*Gülayə Mecid*

# Milyarderlər sanksiyalardan yayınmaq üçün Dubaya qaçırlar

***Dubayın Ukraynadakı müharibə ilə əlaqədar Qərbin sanksiyalarının təsirindən qaçan varlı ruslar üçün sığınacaq olduğu ortaya çıxıb.***

"Unikal" BBC-yə istinadən xəbər verir ki, rusiyalı milyarderlər və sahibkarlar Birləşmiş Ərəb Əmirliklərinə (BƏƏ) kütləvi şəkildə gəlirlər.

Hesabata görə, 2022-ci ilin ilk üç ayında Dubayda ruslar tərəfindən əmlak alışları 67% artıb.

BƏƏ Rusiyaya qarşı sanksiyalar tətbiq etməyib və onun Ukraynaya müdaxiləsini tənqid etməyib.

BƏƏ həmçinin sanksiyaya məruz qalmayan ruslara bir çox Qərb ölkələrinin əksinə çox rahatlıqla viza verir.

Dəqiq rəqəmlər olmasa da son iki ayda yüz minlərlə insanın Rusiyanı tərk etdiyi təxmin edilir.

*Aynurə Xudaverdiyeva*

# "Başladığımız işi necə bitirəcəyimizi bilirik" - Brendan Rocers

***"Lester"in baş məşqçisi Brendan Rocers Konfrans Liqasının yarımfinalında "Roma" ilə cavab oyunu öncəsi fikirlərini bildirib.***

Qol.az xəbər verir ki, bu komandalar arasında İngiltərədə keçirilən matçda 1:1 hesablı heç-heçə qeydə alınıb.

B.Rocers UEFA-nın saytına açıqlamasında deyib: "Qarşıda irəliləyib-irəlilələməyəcəyimizi müəyyən edəcək matç var. Güclü



rəqiblərlə oyunlarda yaxşı futbol nümayiş etdirə bildiyimizi sübut etdik və bu, bizə çox kömək oldu. Bizi bu mərhələyə gətirən keyfiyyətləri bir daha ortaya qoyacağıq. Başladığımız işi necə bitirəcəyimizi bilirik. "Renn" və PSV ilə də çətin idi. Əhval-ruhiyyəmiz eynidir".

Xatırladaq ki, bu gün keçiriləcək "Roma" - "Lester" qarşılaşması Bakı vaxtı ilə saat 23:00-da başlayacaq.

# Gürcüstanlı federasiya prezidenti: "Suqovuşandakı turnirin əhəmiyyəti çox böyükdür"

***"Yüksək qonaqpərvərliyə görə Azərbaycan Kanoe və Avarçəkmə Federasiyasının rəhbərliyinə təşəkkürümü bildirirəm".***

Apasport.az saytının məlumatına görə, bunu azad olunmuş torpaqlarımızda keçiriləcək ilk beynəlxalq turnir - "Prezident kuboku-2022"də iştirak üçün Azərbaycana gələn Gürcüstan Kanoe və Avarçəkmə Federasiyasının prezidenti Zaza Nadiradze deyib.

O bildirib ki, bu yarışın əhəmiyyəti böyükdür: "Azərbaycanda mütəmadi olaraq turnirlərdə iştirak edirik. Budəfəki turnirin əhəmiyyəti çox böyükdür. Çünki yarış işğaldan azad olunmuş ərazidə təşkil olunacaq. Bu yarışda iştirak etməkdən çox məmnunuq. Uzun illər Azərbaycan torpaqlarının işğal altında olması barədə məlumatlı idim. Yarışa böyük olmayan heyətlə qatılmışıq. Ancaq idmançılarımızın medal qazanacağına ümid edirəm. Əsas dostluq əlaqələrinin möhkəmlənməsidir. İnanıram ki, sıx dostluğumuz bundan sonra da inkişaf edəcək".

Gürcüstanın avarçəkmə üzrə milli komandasının baş məşqçisi Kaxaber İlxanaşvili isə növbəti ildə keçiriləcək yarışa daha böyük heyətlə qatılacaqlarını vurğulayıb: "Gələn il Azərbaycanın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunacaq yarışa daha böyük heyətlə qatılacağıq və heyətdə daha güclü idmançılar yer alacaq. Ümid edirəm ki, idmançılarımız mükafatçılar sırasında yer almağı bacaracaqlar. Bu yarışın idmançıların peşəkarlıq səviyyəsinin artırılması və təcrübə qazanması istiqamətində əhəmiyyəti böyükdür".

Qeyd edək ki, "Prezident kuboku-2022"nin açılış mərasimi və ilk yarış günü Suqovuşanda olacaq. Azərbaycan ilə yanaşı, Türkiyə, Gürcüstan, Moldova və Özbəkistandan 100-dən artıq avarçəkənin qatılacağı turnirdə idmançılar



mayın 6-da Suqovuşan su anbarında kayak və kanoe növlərində mübarizə aparacaqlar. Mayın 7-də Mingəçevirdəki "Kür" Olimpiya Tədris-İdman Mərkəzində akademik avarçəkmə üzrə qaliblər müəyyənləşəcək.

"Prezident kuboku-2022" turnirinə ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətinə həsr edilən su üzərində 3D effektli şou və atəşfəşanlıqla yekun vurulacaq.

## Region Liqasının yarımfinal və final məkanı müəyyənləşdi

***AFFA-nın təşkil etdiyi Region Liqasının yarımfinal və final oyunlarının keçiriləcəyi məkan müəyyənləşib.***

"Unikal" AFFA-nın saytına istinadən xəbər verir ki, "Cəbrayıl" və "Qusar" komandaları arasında keçiriləcək ilk yarımfinal oyunu mayın 14-də saat 16:00-da ASK Arenada keçiriləcək. "Xan Lənkəran" və "Araz Naxçıvan" komandaları arasında keçiriləcək ikinci yarımfinal qarşılaşması bir gün sonra eyni vaxtda, eyni məkanda təşkil olunacaq.

Region Liqasının final qarşılaşması isə mayın 20-də Şamaxı şəhər stadionunda olacaq. Əvvəlcə saat 13:00-da 3-cü yer uğrunda oyun, 16:00-da isə final qarşılaşması keçiriləcək.

# Üç komanda bu oyundan sonra mükafatlandırılacaq - PFL-dən açıqlama

***Azərbaycan Premyer Liqasının 2021/22 mövsümünün qalibi "Qarabağ", həmçinin gümüş və bürünc medalların sahibi olacaq komandalar yarışın 28-ci turunda Ağdam təmsilçisi ilə "Neftçi" arasındakı matçdan sonra mükafatlandırılacaqlar.***

Bu barədə PFL-in mətbuat xidmətinin rəhbəri Aslan Şahgəldiyev Qol.az saytına açıqlamasında bildirib. O deyib ki, hər il olduğu kimi, bu dəfə də mükafatlandırılma mərasimi son turda keçiriləcək:

"Qarabağ"a qızıl medallar və çempionluq kuboku təqdim ediləcək. Təkcə "Qarabağ" yox, digər komandalara da - yəni 2-ci və 3-cü yeri tutanlara da mükafat həmin vaxt veriləcək".

Qeyd edək ki, digərlərindən 1 oyun az keçirən "Qarabağ" 25-ci turda "Sabah"la heç-heçə etməklə (1:1)




xallarının sayını 59-a çatdırıb və sona 3 tur qalmış çempionluğu rəsmiləşdirib. Komandanın "Neftçi" ilə 28-ci turdakı görüşü isə mayın 21-i "Azərsun Arena" və ya Tofiq Bəhramov adına Respublika stadionunda keçiriləcək.

# Linqard "Yunayted"i tərk edir

***Cessi Linqard "Mançester Yunayted"də qalmaq istəmir.***



"Unikal" xəbər verir ki, bu barədə jurnalist Fabrizo Romano məlumat verib. O, bu haqda fikrini bu ilin yanvarında verib.

Onun "qırmızı şeytanlar"la müqaviləsi bu yay başa çatır.

# "Tanrı dedi ki, bu gün sənin günündür" - "Real"ın qəhrəmanı

***"Mən baş verənləri izah edə bilmir, deməyə söz tapmıram".***

Qol.az-ın xəbərinə görə, bu sözləri "Real"ın futbolçusu Rodriqo deyib.

Çempionlar Liqasının 1/2 final mərhələsinin (3:1, ilk oyun 3:4) cavab görüşündə 21 yaşlı vinger komandasının qəhrəmanına çevrilib. 68-ci dəqiqədə Toni Kroosun əvəzinə meydana daxil olan braziliyalı 90-cı dəqiqədə hesabı bərabərləşdirib, 90+1-ci dəqiqədə isə daha bir qol vurmaqla oyunu əlavə vaxta daşıyıb. 95-ci dəqidə Kərim Benzema penalti ilə matçda son nöqtəni qoyub - 3:1. Bununla da "Real" finala yüksəlib.

Rodriqo görüşdən sonra həmçinin deyib: "Tanrı üzümə baxıb dedi: bu gün sənin günündür".

# "Neftçi" irəlilədi, "Qarabağ" mövqeyini qorudu

***Avropanın top komandalarının may reytinqi açıqlanıb.***

Apasport.az saytının məlumatına görə, cədvəldə qitənin 450 ən güclü klubu yer alıb.

Ötən ayla müqayisədə siyahıda bəzi dəyişikliklər olub. Azərbaycanı reytinqdə üç komanda təmsil edir.

Ölkəmizin ən yaxşı təmsilçisi "Qarabağ"dır. Premyer Liqanın çempionunun mövqeyi dəyişməyib.

Qurban Qurbanovun yetirmələri 213 xalla qitədə 86-cıdır. Üç pillə irəliləyən "Neftçi" 30 xalla 241-cidir. 10 xal geri qalan "Qəbələ" 291-ci sırada qalıb.

Qeyd edək ki, siyahıya 2569 xala malik "Real" başçılıq edir.

# Final oyununu kimlər buraxacaq?

***Mayın 7-də keçiriləcək 3-yer uğrunda və final matçı ilə futzal üzrə Yüksək Liqada 2021//22 mövsümünə yekun vurulacaq.***



Apasport.az xəbər verir ki, komandalar həlledici matça heç də ideal heyətlə çıxa bilməyəcək.

EKOL-dan Mehdi Rəsulov, Samir Həmzəyev və Faiq Əliyev hər iki oyunda sarı vərəqə aldığına görə, final görüşündə iştirak etməyəcək. "Araz-Naxçıvan"da isə cəzalı olduğuna görə pley-off matçlarında iştirak etməyən Murilo Borqes bu dəfə komandasına kömək edə biləcək.

"Neftçi"nin qapıçısı Anar Məmmədov EKOL-la pley-offun ikinci matçında qırmızı vərəqə aldığından, cəzalı durumdadır.

Qeyd edək ki, əvvəlcə "Baku Fire" və "Neftçi" İK bürünc medalın sahibini müəyyənləşdirəcək. Final qarşılaşmasında isə "Araz-Naxçıvan"la EKOL gücünü sınayacaq.